Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 96 (8119) CÜMƏ, 3 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV dünyanı ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət göstərməyə çağırdı

## *Bakıda bəşəriyyəti narahat edən problemlərin həlli yolları müzakirə olundu*

Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlət başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə forumun bütün iştirakçılarını salamlayır, bu gün bizimlə birlikdə olduqlarına görə qonaqlarımıza təşəkkürümü bildirirəm. Burada 100-dən artıq ölkədən 500-dən çox qonağımız var. Bu, onu göstərir ki, bu forum nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrilib.

Xatirimdədir, 8 il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq.

Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Azərbaycan əsrlərboyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlərboyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.

Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlərboyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.

Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlərboyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam həmrəyliyi ili" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar.

Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə evsahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.

Əminəm ki, bu gün və sabah forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək çıxışçılara fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaq.

Ötən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o, dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir.

Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir.

Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var.

*Ardı 2-ci səh.*

Çoxmədəniyyətli cəmiyyətin nümunəsi sayılan Azərbaycan eyni zamanda müstəqil dövlət olaraq səmərəli təşəbbüslərlə yerləşdiyi regionda və dünyada gedən proseslərə özünün müsbət təsirini göstərməkdədir. Heç də təsadüfi deyil ki, dövlət başçısı İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüslər daim yeni imkanlar yaradır.

Bu gün dünyada gedən proseslər əksər hallarda narahatedici situasiyalar tələb edir ki, beynəlxalq dialoqa daha böyük diqqət ayrılsın. Dünyanın əksər ölkələrini eyni məqsəd uğrunda bir araya toplayan beynəlxalq tədbirlər bu baxımdan aktuallığı ilə seçilir və bəşəri əhəmiyyət daşıyır. Paytaxt Bakının belə beynəlxalq tədbirlərə evsahibliyi isə, təbii ki, təsadüfi deyil.

Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə mayın 2-də Heydər Əliyev Mərkəzində "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında öz işinə başlayan ikigünlük V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun da əhəmiyyəti çox böyükdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva, həmçinin 100-dən çox ölkənin və 30-dan artıq beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirak etdiyi V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində dövlət başçısı Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkəmizdə daim dini tolerantlığın hökm sürdüyünü bildirdi. Respublikamızda multikulturalizmin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu qeyd edən Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edildiyini vurğuladı. Dövlət başçısı qeyd etdi ki, dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı. Bu baxımdan multikulturalizm və bu yöndə Azərbaycanda keçirilən digər silsilə beynəlxalq tədbirlər mühüm əhəmiyyət kəsb edir. Çünki növbəti forum çərçivəsində aparılan müzakirələr, fikir mübadiləsi ümumi məqsədlərə xidmət edir.

"Bakı Prosesi"nin BMT və digər mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini deyən Prezident İham Əliyev burada qəbul edilən qərarların əhəmiyyətindən söz açdı. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın müstəqillik baxımından gənc olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdıran Prezident dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Prezident İlham Əliyev bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycanın sürətlə inkişaf etdiyini də söylədi.

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinos ilk dəfə möhtəşəm Bakı şəhərində olmasından son dərəcə məmnunluğunu ifadə etdi. Bildirdi ki, BMT-nin Sivilizasiyalararası Alyansı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış "Bakı Prosesi"nin tərəfdaşıdır. "Birlik "Bakı Prosesi"nin ruhudur" deyən Migel Moratinos əlavə etdi ki, Bakı BMT-nin Sivilizasiyalararası Alyansının mərkəzinə çevrilə bilər.

*Ardı 4-cü səh.*

## Heydər Əliyev: İki formasiya - Bir memar



1969-cu ilə nisbətən 1982-ci ildə faktiki qiymətlərlə respublikada ümumi ictimai məhsul 749,1 milyon manatdan 2292,7 milyon manata, milli gəlir 329,2 milyon manatdan 1045,8 milyon manata, sənaye məhsulunun ümumi həcmi 407 milyon manatdan 1207,7 milyon manata və kənd təsərrüfatının ümumi məhsulu 97,5 milyon manatdan 383,5 milyon manata çatmışdır.

Heydər Əliyev iqtisadiyyatın əsas probleminin həllinə - məhsuldarlığın artırılmasına nail olmuşdur: 1969-1982-ci illərdə Azərbaycanda ictimai əmək məhsuldarlığı 1,8 dəfə və əhalinin hər nəfərinə düşən pul gəlirləri 2 dəfə artmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan Respublikası ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və Sovet İttifaqında Rusiya Federasiyası və Azərbaycan özünü təmin edən və donor respublika idi.

Heydər Əliyevin Azərbaycan miqyasına sığmayan istedadı və təcrübəsi onun sovet rəhbərliyinə yüksəlməsi ilə nəticələndi. 1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib. Moskvada olmasına baxmayaraq, Azərbaycanda mövcud vəziyyət, Azərbaycanın problemləri onu daim maraqlandırırdı və o çalışırdı ki, yeni imkanlardan istifadə edərək Azərbaycana kömək etsin. O vaxt Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdir.

1987-ci ildə Heydər Əliyevin Sovet rəhbərliyindən istefasından sonra Azərbaycanın problemləri başladı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu və respublikada ictimai-siyasi və sosial-iqtisadi böhran getdikcə dərinləşməyə başladı.

*Bax: səh. 5*

## Azərbaycanın şərəf tarixinin müəllifi

İstənilən milli məqsədin gerçəkləşdirilməsi üçün müstəqil dövlətin və güclü idarəçilik səriştəsinə malik liderin olması vacib şərtlərdir. Belə liderlərin seçdiyi düzgün strategiya qlobal hədəflərə doğru inamlı addımların atılmasına, qarşıya qoyulmuş məqsədlərin uğurla reallaşdırılmasına imkan yaradır.

Belə obyektiv dəyərləndirmə zamanı əməli siyasət yeridən, milli inkişaf üçün dayanıqlı əsasların müəllifinə çevrilən böyük liderlərin xalq qarşısındakı misilsiz xidmətləri daha qabarıq görünür.

Bu gün Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi modernləşmə mərhələsinə qədəm qoyması ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla müəyyənləşdirdiyi uzaqgörən siyasətin nəticəsidir. Hakimiyyətdə olduğu 34 il müddətində dahi öndər xalqının tarixi mənafeləri uğrunda əzmkar mübarizə aparmış və ictimai-siyasi proseslərdə real güc mərkəzi kimi özünü göstərmişdir.

Azərbaycan ictimai təfəkküründə əsrlər boyu aktuallığını qoruyub saxlayan ədalətli rəhbər arzusu da Heydər Əliyev dühasının parlaq şəxsiyyətində reallığa qovuşmuş, ümummilli lider siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm və insanpərvərlik prinsiplərinə əsaslanan mükəmməl idarəçilik sisteminin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Dərin zəkası, liderlik qabiliyyəti, milli dəyərlərə sıx bağlılığı, fitri idarəçilik məharəti, zəngin mənəviyyatı ilə daim xalqının sevimli şəxsiyyəti olmuş ulu öndər bu zirvəyə həm də hakimiyyət sükanının arxasına keçdiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə və özbaşınalığa qarşı apardığı prinsipial mübarizə ilə yüksəlmişdir.

*Ardı 6-cı səh.*

## İslahatların yeni mərhələsi başlayır

### İlham Əliyev qarşıdakı hədəfləri və iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını bəyan etdi

*"Hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işləyirik, bu proses başlanmışdır. Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislər, alimlər cəlb ediləcək ki, yeni inkişaf strategiyamız uğurlu olsun və gözəl nəticələrə gətirib çıxarsın. Bu günə qədər görülmüş işlər bunun üçün gözəl zəmin yaratdı. Biz əsas infrastruktur layihələrini icra etdik".*

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev həm ölkə iqtisadiyyatının uğurlu inkişaf istiqamətlərini, həm də islahatların hədəflərini açıqladı. Dövlət başçısı idarəetmə sahəsində də islahatların aparılmasına böyük ehtiyac olduğunu vurğulayaraq hər bir sahədə inkişaf üçün böyük meydanın olduğunu diqqətə çatdırdı.

Həqiqətən də bu ilin 3 ayında reallığa çevrilən islahatların uğurları onu deməyə əsas verir ki, müəyyən edilən hədəflərə doğru inamlı addımlar atılır. Son 3 ayda həm iqtisadi göstəricilərə, həm də uğurlu nailiyyətlərə nəzər yetirək.

*Ardı 9-cu səh.*

5th WORLD FORUM ON INTERCULTURAL DIALOGUE BAKU 2-3 MAY 2019

# V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

# İLHAM ƏLİYEV dünyanı ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət göstərməyə çağırdı

*Əvvəli 1-ci səh.*

Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir.

Bu gün nisbətən gənc müstəqil dövlət olan Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Siyasi, iqtisadi, mədəni körpülər, eyni zamanda, praktiki baxımdan da nəqliyyat bağlılığı yaradan körpülər.

Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir.

Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib. Bizim fəal xarici siyasətimiz var. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb. Xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaşdır. Biz İslam Əməkdaşlığı Təşkilatının fəal üzvüyük. Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Qeyd etdiyim kimi, "Bakı Prosesi" Avropa ilə müsəlman dünyası arasında körpülərin qurulması baxımından bizim töhfəmizdir.

Yəni, bizim xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bizim xarici siyasətimiz bizə əhəmiyyətli beynəlxalq nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradır. Müxtəlif ölkələrlə və tərəfdaşlarla yaxşı əməkdaşlıq olmadan bu layihələrin icrası mümkünsüz olardı. Son illər ərzində bizim iqtisadi inkişafımız enerji layihələrimizə söykənib. Qonşularımız və tərəfdaşlarımızla birlikdə biz şaxələndirilmiş neft-qaz kəmərləri vasitəsilə Xəzər dənizini Qara dənizlə və Xəzəri Aralıq dənizi ilə birləşdirə bildik. Bu isə bizim, qonşularımızın və dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi deməkdir. Bu gün biz "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi üzərində fəal çalışırıq. Bu, artıq yeni miqyasda həyata keçirilən layihədir. O, 7 ölkəni birləşdirir və həmin ölkələrə layihədən faydalanmağa imkan yaradır.

Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb.



Dünya Bankının sonuncu "Doing Business" hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.

Biz xarici borcumuzun azaldılması strategiyası üzərində çalışırıq. O, onsuz da aşağı səviyyədədir - ümumi daxili məhsulumuzun 19 faizi səviyyəsində. Eyni zamanda, biz iqtisadiyyatımızın şaxələndirilməsi, yoxsulluq və işsizliyin tamamilə aradan qaldırılması üzərində çalışırıq. Bu, gündəliyimizdə duran başlıca məsələlərdəndir. Çünki bizim iqtisadi inkişafımız insanlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə nəticələnir. On beş il öncə əhalinin 50 faizi yoxsulluq səviyyəsində yaşayırdı. Bu gün bu göstərici 5-6 faiz səviyyəsindədir.

Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada İslam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərinin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və təqdimatlar keçiririk.

Bağlılıq haqqında danışarkən istərdim Azərbaycanın iştirak etdiyi nəqliyyat layihələrini xüsusi qeyd edim. Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi baxmırıq. Əslində, bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını yaradır. Azərbaycan qədim İpək yolu üzərində yerləşir. Son illər yaratdığımız müasir nəqliyyat infrastrukturu artıq Azərbaycanı vacib tranzit ölkəyə çevirib. Yaxın qonşularımız və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq olmasa idi, biz tranzit ölkəyə çevrilə bilməzdik. Bunun üçün qonşular və tərəfdaşlar tələb olunur.

Nəqliyyat sahəsinə qoyulan sərmayələr avtomatik olaraq regionda daha da proqnozlaşdırıla bilən vəziyyət yaradır ki, burada ölkələr birgə faydalanır. Bizim siyasətimiz əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı fayda vasitəsilə məqsədlərimizə nail olmaq və ölkəni gücləndirməkdən ibarətdir.

Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Burada hər bir tərəf fayda görməsə, uğurdan söhbət gedə bilməz. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Eyni zamanda, lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik.

Azərbaycan, həmçinin "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Xəritəyə baxsanız, Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən nəqliyyat marşrutlarının ölkəmizin ərazisindən keçdiyini görərsiniz. Buna nail olmaq üçün isə gərgin işləməli olduq. Burada coğrafiya kifayət deyil, bu, yalnız ilkin şərt, zəruri element sayıla bilər. Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırdıq. Beləliklə, bu gün coğrafi və nəqliyyat mərkəzi olmaq baxımından Azərbaycan tərəfdaşlarına çoxlu imkanlar təklif edir.

Əziz dostlar, Azərbaycanda keçirilən bugünkü forum əlamətdar hadisədir. Bir daha bu forumda iştirak edən bütün tərəfdaşlar, tərəfdaş təşkilatlar, ziyalılar, alimlər, siyasətçilər, ictimai xadimlər, QHT və media nümayəndələrinə minnətdarlığımı bildirirəm. Əminəm ki, müzakirələr səmərəli olacaq və bunun nəticəsində müvafiq tövsiyələr veriləcək və ölkələrin gələcəyi və regional inkişafla bağlı qərar qəbul edən şəxslər bizim tövsiyələrimizi nəzərə alacaq, beləliklə, dünya daha sabit və təhlükəsiz olacaq.

Çox sağ olun.

* * *

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.

* * *

Tədbirin moderatoru forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

* * *




Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi **Migel Anxel MORATİNOS** dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli dostlar.

Mənim üçün bu cür möhtəşəm Bakı şəhərində olmaq çox fərəhləndirici faktdır. Bu, mənim üçün həm hislər, həm məsuliyyət ehtiva edən bir faktdır. Hislər və emosiyalar ona görədir ki, möhtərəm cənab Prezident, mən birinci dəfədir Azərbaycana, Bakıya təşrif buyururam. Buraya BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi kimi gəlmişəm. Məsuliyyət ondan ibarətdir ki, Sivilizasiyalar Alyansı "Bakı Prosesi"nin tərəfdaşıdır. Məhz bu səbəbdən çıxışım, fikirlərim mənim üçün böyük məna kəsb edir. Zənnimcə, V Forumun başlığı açıq-aydın ismarıcı ehtiva edir. Buraya üç açar söz daxildir: dialoq, dialoqun qurulması və fəaliyyət naminə. Mən istərdim üçüncü konsepsiyanı incələyim. Dialoq, fəaliyyət və bunun nəticəsində yaranan alyans və yaxud ittifaq. Mən hesab edirəm ki, bu forum vaxtında təşkil olunub.

Forumda müzakirə olunan əsas mövzulardan biri - dünyada baş verən münaqişələr haqqında danışan BMT-nin Ali nümayəndəsi bu problemin kökündə dinin və imanın deyil, dinlə manipulyasiya edərək insanları bir-birinə qarşı qoyan qüvvələrin dayandığını əsaslandırdı. İnsanları bu tendensiyanın yaratdığı zorakı ekstremizmdən və terrorizmdən qorumaq üçün icmaların, beynəlxalq təşkilatların, bütün sülhsevər qüvvələrin birliyinə ciddi ehtiyac olduğunu bildirən Migel Anxel Moratinos bununla bağlı BMT-nin hazırladığı sülh konsepsiyası barədə məlumat verdi və "Bakı Prosesi"nin bu konsepsiyaya mühüm töhfələr verəcəyinə əminliyini ifadə edərək dedi:

- Xanımlar və cənablar, zənnimcə, mədəniyyətlərarası dialoqa həsr olunmuş bu forum dünyaya çox açıq-aydın mesaj göndərən bir platformadır. Bu, sülh mesajıdır.

Möhtərəm cənab Prezident Əliyev, mən qeyd etməliyəm ki, "Bakı Prosesi", mədəniyyətlərarası dialoqu təşviq edən və sülhü bərqərar edən əsas elementlərə çevrilir. Görürəm ki, bizim işimizdə sinerji və tamamlıq, həmahənglik var. Biz illər ərzində çalışaraq bir-birimizi dəstəkləyirik, bir-birimizin işinə töhfə veririk, tərəfdaşlığımızı gücləndiririk. Əslində, Bakı BMT-nin Sivilizasiyalar Alyansının regional habına çevrilə bilər. Bir daha qeyd etməliyəm ki, müasir, mürəkkəb dünyada biz yeni yanaşmalara möhtacıq. Yeni alyanslar formalaşdırmalıyıq. Biz yeni alyanslar quraraq bu gün işləməliyik.

Yekunda, möhtərəm cənab Prezident, icazənizlə vurğulamaq istəyirəm ki, sülh üçün biz müntəzəm səylər göstərməliyik və birlikdə çalışaraq səlahiyyətlərimiz və məsuliyyətimiz çərçivəmizdə nəyəsə nail ola bilərik. İspan dilində çox möhtəşəm bir söz var: "Kombiventiya". Yəni, vahid bir sözdür. Birgə yaşamaq. İngilis dilində "Live in together", İspan dilində "Kombiventiya". "Kombiventiya" "Bakı Prosesi"nin ruhuna aid olmalıdır. Çox sağ olun.

* * *

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini **Nada Al-NAŞİF** dedi:

- Cənab Prezident Əliyev, müxtəlif beynəlxalq təşkilatlardan olan qonaqlar, xanımlar və cənablar.



Burada yenidən Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluğumu ifadə edirəm. UNESCO bu tədbirə yarandığı ilk günlərdən etibarən xüsusi əhəmiyyət verib və cənab Prezidentin burada iştirakı, eləcə də Azərbaycan hökuməti mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təbliği və təşviqində Bakı Forumu şəklində təsbit edilən bir proqramın həyata keçirilməsində xüsusi rol oynayır. Bu beynəlxalq mədəniyyətlərarası dialoq proqramında çox uzunmüddətli bir hədəf mövcuddur. Biz bu məsafəni birlikdə qət etmişik. Forumun əsasında duran bu konsepsiya bizim hamılıqla və "daha az daha çox olacaqdır" prinsipi ilə çalışaraq daha dolğun bir strukturun yaradılmasına, müxtəlif debat və müzakirələrlə konkret əməli tədbirlər görməyimizə kömək edəcək. Bizim bu V Forumun keçirilməsindən əsas məqsədimiz də baxışlarımızın yenilənmiş innovasiya və ruhun fonunda məhz bu tədbirlərin təsirini və davamlılığını təmin edə bilməkdir. UNESCO da Azərbaycan Respublikasının hökuməti ilə bu prosesdə yaxından əməkdaşlıq edir.

Nada Al-Naşif zorakılıq, etinasızlıq, münaqişələr, cəmiyyətlərdəki qütbləşmə, məcburi köçkünlərlə bağlı problemlər və bu qəbildən digər müasir çağırışların qarşısının alınması üçün səyləri birləşdirməyin zəruriliyini vurğulayaraq dedi:

- Bizim əsas məqsədimiz müsbət dəyişiklikləri insan hüquqları və qarşılıqlı hörmət əsasında təbliğ etmək, müsbət istiqamətdə daha ədalətli, inklüziv və dayanıqlı bir cəmiyyət formalaşdırmağa çalışmaqdır. Bu, davamlı inkişaf hədəflərinin də ümdə prinsipləridir ki, bu da heç kəsi arxada qoymamaq prinsipi ilə həmahəngdir. Bütün bunların hamısı müxtəlifliyin hər zaman güc və qüdrət mənbəyi olduğunu nümayiş etdirmək və bunlardan cəmiyyətlərdə hamının bəhrələnməsinə imkan yaratmaqdır. UNESCO-nun da əsas məqsədi qadınların və kişilərin təfəkkürünə sülh prinsiplərini aşılamaqdır. Bir sıra beynəlxalq təşkilatların məqsədi də cəmiyyəti bu hədəflərə doğru irəli aparmaqdır. BMT də 2013-cü ildən bəri icra olunan beynəlxalq onillik proqramında mədəniyyətlərin dialoqunu təşviq edir. Bizim bu 10 illik proqramımız 2022-ci ildə başa çatacaq. Biz artıq nailiyyətlərimizi nəzərdən keçirərək 2022-ci ildən sonra nələr etmək barədə düşünəcəyik. Bu fürsət bizə yeni təşəbbüslərlə çıxış etməyə, illər boyunca topladığımız təcrübəmizi, "Bakı Prosesi"ni bütün maraqlı tərəflərlə birlikdə daha da irəli aparmağa kömək edəcək.

Nada Al-Naşif mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün UNESCO çərçivəsində təhsil məsələlərinə xüsusi diqqət yetirildiyini, bu istiqamətdə bir sıra praktiki addımların atıldığını vurğulayaraq dedi:

- Bakı Forumunun da əsas prinsipi olan daha səmərəli və daha mütərəqqi dialoq qurmaq üçün biz gücümüzü, qüvvələrimizi birləşdirərək səfərbər etməliyik.

Xanımlar və cənablar, biz Bakıya toplaşmaqla məhz əməli tədbirlərin, dinamik inkişafın, sosial-iqtisadi, siyasi mühitin güclənməsinin vacib olduğunu bir daha yəqin etdik. Bu gün konkret tədbirlər görməyimiz, addımlar atmağımız, çeviklik, cəsarət və şücaət göstərməyimiz həmişəkindən daha artıq dərəcədə vacibdir. Beləliklə, daha faydalı, daha mənalı bir dialoq bizim müxtəlifliklərimizi daha yaxşı anlamağa kömək edəcək. Əminəm ki, biz ümumi dəyərlərimiz naminə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik. Təşəkkür edirəm.

* * *




Bakı Forumunun mühüm əhəmiyyətini xüsusi vurğulayan İslam Əməkdaşlıq Təşkilatının Baş katibi **Yusif bin Əhməd Əl-OSAYMİN** dedi:

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Xanımlar və cənablar.

Allahdan sizə sülh diləyirəm.

Mən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün gözəl Bakı şəhərində yenidən olmaqdan məmnunam. Əvvəlcə, icazə verin, məni dəvət etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə və onun hökumətinə təşəkkürümü bildirim.

Əlbəttə ki, bu tədbir Qərb və İslam dünyası arasında mədəniyyətlərarası dialoqun aparılmasına verilən bir töhfədir və onun gücləndirilməsinə yönələn bir addımdır. Təbii ki, bu il keçirilən forum məhz bizim ümumi əməyimizə əsaslanır, xüsusən də münaqişələrə və radikal ünsürlərə qarşı mübarizənin aparılmasında ümumi cəbhədən çıxış etməyi bizdən tələb edir. Təbii ki, biz bununla mədəniyyətlərarası dialoqun bütün sahələrdə gücləndirilməsi zərurətini müşahidə edirik. İstərdik ki, biz ümumi məxrəcdən çıxış edərək ayrı-seçkiliyin, ksenofobiyanın və ekstremizmin bütün formalarına qarşı birgə mübarizə aparaq. Əlbəttə, hesab edirik ki, bu məqsədə nail olmaq üçün bu və ya digər ölkələr tərəfindən xüsusi səylər tələb olunur. Bu, bizim hamımızın - sivilizasiyaların, cəmiyyətlərin üzərinə böyük öhdəlik qoyur. Buna görə ayrı-seçkiliyə və münaqişələrin aradan qaldırılmasına gəldikdə, hesab edirik ki, vəziyyət yaxşılaşmaqdansa daha da pisləşir, gərginləşir. Görürük ki, bu gün müxtəlif qütblər arasında qarşıdurmalar baş verir.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi üçün bütün ölkələrin səyləri birləşdirmələrinin vacibliyini diqqətə çatdıraraq bildirdi:

- İslam Əməkdaşlıq Təşkilatı kifayət qədər uzun müddətdə bu istiqamətdə işləyib, fəaliyyət göstərib və digər təşkilatları da bu addımları atmağa, mədəniyyətlərarası dialoqu gücləndirməyə səsləyib. Müxtəlif regionlarla birbaşa əlaqələr quraraq İslam Əməkdaşlıq Təşkilatı bunu aydın şəkildə bəyan edib ki, əməkdaşlığın qarşılıqlı şəkildə aparılması, siyasi və mədəni sahələrdə işbirliyi çox vacibdir. Bu, əslində mədəniyyətlərarası və sivilizasiyalararası anlaşmaya aparan bir yoldur.

*Ardı 3-cü səh.*

5th WORLD FORUM ON INTERCULTURAL DIALOGUE BAKU 2-3 MAY 2019

## V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

# İLHAM ƏLİYEV dünyanı ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət göstərməyə çağırdı









*Əvvəli 2-ci səh.*

Yusif bin Əhməd Əl Osaymin dünyada mədəniyyətlərarası dialoq şəraitində birgəyaşayışın təmin olunması üçün müvafiq mühitin yaradılmasının zəruriliyinə toxunaraq dedi:

- Xanımlar və cənablar, Zati-aliləri, biz münaqişələrin və qarşıdurmaların, həmçinin bərabərsizliyin aradan qaldırılmasına bu yolla nail ola bilərik. Buna görə bu gün müxtəlif cəmiyyətlərdə onu görürük ki, həmin bərabərsizliklə üzləşən təbəqələr küçələrə çıxır, etirazını bildirir. Təbii ki, göstərilən bu səylərdə hökumətlər daha fəal olmalıdır. Bizim təşkilatımız bir daha bəyan edir ki, qərarları qəbul edən qurumlar, tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Əgər söhbət müasir cəmiyyətdən gedirsə, təbii ki, bu dəyərlərdən çıxış edərək insanlar bir-biri ilə yan-yana yaşamağa, dinc şəkildə fəaliyyət göstərməyə vərdiş etməlidirlər.

Buna görə biz bütün tərəflər arasında dialoqun tərəfdaşıyıq. İstərdik ki, bundan sonra da bizə yaxın olan tərəfdaşlarımızla, bu kimi tədbirlərdə iştirak edən tərəflərlə hamımız səylərimizi birləşdirərək qarşımızda olan çağırışları anlayaq, onları nəzərdən keçirək və beləliklə, münaqişələrin həllinə və yaxud da qarşıdurmaların yaranmasının qarşısının alınmasına töhfə verək.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi rəhbərlik etdiyi qurumun müxtəlif müsəlman ölkələrində mədəniyyətlərarası dialoqla bağlı həyata keçirdiyi tədbirləri diqqətə çatdıraraq bildirdi:

- Yekun olaraq bildirmək istəyirəm ki, İslam Əməkdaşlıq Təşkilatı bütün regionlara dialoqun gücləndirilməsi öhdəliyinə sadiqdir və dünyada baş verən hadisələrdən irəli gələrək biz öz proqramlarımıza müvafiq düzəlişləri etməyə hazırıq. Mən hamınıza təşəkkürümü bildirirəm və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə uğurlar arzulayıram. Çox sağ olun.

* * *



Avropa Şurasının Baş katibinin müavini **Qabriella BATTAİNİ-DRAQONİ** dedi:

- Zati-aliləri möhtərəm cənab Prezident İlham Əliyev.

Birinci vitse-prezident xanım Əliyeva.

Hörmətli məruzəçilər, xanımlar və cənablar.

İlk növbədə, mən qeyd etməliyəm ki, Azərbaycana gəlməkdən böyük şərəf hissi keçirirəm. Azərbaycan bizim zəruri üzv ölkəmizdir. Bizim gənc, dinamik, demokratik dövlətdir. Avropanın bu hissəsində yerləşən bir məmləkətdir. Habelə nəinki mədəniyyətlərarası dialoq, həmçinin məxsusi olaraq müzakirə etdiyimiz mövzu ilə bağlı aparıcı dövlətdir. Odur ki, qeyd etmək istəyirəm, burada - bu forumda bir daha çıxış etmək mənim üçün böyük fəxrdir.

Mən Azərbaycan hökumətinə nəinki bu tədbirin təşkilatçılığına görə öz minnətdarlığımı bildirmək istəyirəm, həmçinin ümumi "Bakı Prosesi"nin təşkilinə görə minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, əvvəlki məruzəçilərin qeyd etdiyi kimi, mən onların fikrini paylaşmaq istəyirəm. Yəni, "Bakı Prosesi" əslində uğur tarixçəsinə çevrilib. Bu proses təhsilə yönəlib. Ekspertlər, mədəniyyətlərarası dialoq sahəsində çalışan mütəxəssislər üçün təcrübələrini, biliklərini və anlayışlarını paylaşmaq üçün müqayisəolunmaz bir fürsətdir. Bildiyiniz kimi, mən bu gün Avropa Şurasını təmsil edirəm. Avropa Şurası mədəniyyətlərarası dialoq sahəsində çalışır və bundan sonra biz böyük nailiyyətlərə imza atmağa çalışırıq.

Biz bu prosesə minnətdarıq. Nəyə görə minnətdarıq? Çünki mədəniyyətlərarası dialoq yanaşması həddən ziyadə mühüm və vacibdir. Bu yanaşma yaşadığımız çağdaş mürəkkəb dünya üçün səciyyəvidir.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni dedi ki, mədəniyyətlərarası dialoqun təşviq olunması bir anlıq hadisə deyil. Bu, heç vaxt bitməyən bir çağırışdır. Odur ki, bizim qarşımızda dialoqun fəaliyyətə çevrilməsi ilə bağlı məsuliyyətin olduğunu deyən Baş katibin müavini bildirdi:

- Mədəniyyətlərarası dialoq, sosial inklüzivlik, habelə azlıq hüquqlarının qorunması həddən ziyadə vacibdir. Yekunda tərəqqi siyasi iradə əsasında təmin olunacaq. Biz bununla bağlı məhz bu hissləri keçiririk. Sizin vasitənizlə, möhtərəm cənab Prezident, biz güclü liderliyi və siyasi iradəni sezə bilirik və bu, bizim planlarımızı irəli apara bilər. Bir faktı qeyd etməliyik ki, biz öz inamımızı və dəyərlərimizi qorumalıyıq. Biz sülh üçün dialoq qurmalıyıq, ləyaqət və qarşılıqlı hörmətə əsaslanan rəğbət göstərməliyik. Bu, bizim fəaliyyətimizə veriləcək qiymətdir. "Bakı Prosesi" məhz buna həsr olunur.



* * *

ISESCO-nun Baş direktoru **Əbdüləziz Osman əl-TUVEYCRİ** də forumun əhəmiyyətinə toxundu. ISESCO-nun İslam aləmində sivilizasiyalararası münasibətlərə töhfə vermək üçün yorulmaz fəaliyyət göstərdiyini qeyd edərək dedi:

- Zati-aliləri, Prezident İlham Əliyev.

Hörmətli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva.

Xanımlar və cənablar, Zati-aliləri.

Bu gün belə bir mötəbər forumun açılışında iştirak etməkdən məmnunluq duyuram. Mən hesab edirəm ki, bu, dünyanın ən nüfuzlu tədbirlərindən biridir. 2011-ci ildə bu forumun təməlini biz Bakı şəhərində qoyduq. O vaxt bildirildi ki, əgər siyasi iradə, öhdəlik, sabitlik olarsa, uğur gələcək.

Əbdüləziz Osman əl-Tuveycri Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.

Dünyada müharibələrin, yoxsulluğun artdığını təəssüflə qeyd edən ISESCO-nun Baş direktoru mənfi meyillərlə mübarizədə təhsilin roluna toxundu. "Biz insanlara təhsil verməliyik, həm dini, həm də mədəni dəyərlər haqqında onları maarifləndirməliyik", - deyə Əbdüləziz Osman əl-Tuveycri vurğuladı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi:

- Bizim hamımıza məlum olan reallıq ondan ibarətdir ki, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altındadır. Bu da beynəlxalq hüququn pozulmasıdır. BMT-nin Təhlükəsizlik Şurasının bununla bağlı qətnamələri var. Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir. Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır. Ancaq bu torpaqlar yenidən Azərbaycana qovuşmalıdır. Bu, sülhə aparan yoldur, bu, dialoqun uğurlu olmasına aparan yoldur.

ISESCO-nun Baş direktoru rəhbərlik etdiyi qurumun Azərbaycanın təşviq etdiyi dəyərlərə tərəfdar olduğunu vurğulayaraq bildirdi:

- Azərbaycana gəldikdə, ISESCO lap əvvəlcədən Azərbaycanın bu dialoq, hörmət dəyərlərinə tərəfdar çıxıb. Biz öz müxtəlifliyimizi qorumalıyıq, ona hörmətlə yanaşmalıyıq, insanlarımızı qorumalıyıq, dini dəyərlərə sadiq olmalıyıq. Biz bütün bunlara hörmətlə yanaşmalıyıq. Tolerantlıq o deməkdir ki, biz digər düşüncəyə, digər dəyərlərə malik olan insanı qəbul etməliyik. Bu, o deməkdir ki, onlara da hörmətlə yanaşmalıyıq. İstərdik ki, həmçinin bu yanaşma bizə münasibətdə də olsun. Bu, təhlükəsizliyə aparan yeganə yoldur. Bununla əsl dialoq olur, mənalı dialoq olur və zorakı münaqişələrin qarşısı bununla alınır.

Əbdüləziz Osman əl-Tuveycri dedi ki, İslam sülh və mərhəmət dinidir. Sonda Baş direktor tədbirin təşkilinə görə bir daha Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Mən cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bütün iştirakçılar öz ölkələrinə qayıtdıqdan sonra burada aparılan müzakirələrdən nəticə çıxaracaqlar, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsində və ərazi bütövlüyünün bərpa olunmasında ölkənizə dəstək verəcəklər. Arzu edirəm ki, Allahın iradəsi ilə bütün dünyada sülh və rifah bərqərar olunsun. Sağ olun.

* * *

Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran "Necə gözəl bir dünya" mahnısı ifa edildi.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü nəzərdə tutulub. Eyni zamanda, iki gün ərzində "Akademik Forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması", "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması", "Sülh naminə çoxtərəflilik və diplomatiya", "Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu" və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgi də açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Beləliklə, iki gün ərzində Bakıda müasir dünyanı narahat edən ən aktual məsələlər müzakirə mövzusu olacaq.

Dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu forum mühüm əhəmiyyət kəsb edir.

5th WORLD FORUM ON INTERCULTURAL DIALOGUE BAKU 2-3 MAY 2019

# V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## *Migel Anxel MORATİNOS:* "Bakı dünyada dialoq mərkəzi kimi tanınır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğuladı.

2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən Azərbaycan Prezidenti İlham Əliyevlə ilk görüşdən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını dedi.



Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı Prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğuladı. Bildirdi ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır. Söhbət zamanı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirildi.

## *Yusif bin Əhməd əl-OSAYMİN:* "Bakı Prosesi" mühüm beynəlxalq platformadır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edib.

AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymin V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək "Bakı Prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söylədi. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlığın da qovşağına çevrildiyini qeyd edən Yusif bin Əhməd əl-Osaymin Azərbaycanı dinc birgə yaşayışın rəmzi kimi xarakterizə etdi.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə forumda iştirakına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev qonağın forumun açılış mərasimində söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı. Dövlət başçısı "Bakı Prosesi"nin mühüm beynəlxalq platforma olduğunu dedi. Bu prosesin 10 ildən artıq davam etdiyini və bu gün dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırdı.

Görüşdə İslam dünyasında birliyin və həmrəyliyin vacibliyi qeyd olundu və Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdir edildi, İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

## *Qabriella Battaini-DRAQONİ:* "Azərbaycan Avropa Şurasının layiqli üzvüdür"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək "Bakı Prosesi"ni Avropa Şurası üçün də uğurlu platforma adlandırdı. 2008-ci ildən bu prosesin genişlənərək mühüm hərəkata çevrildiyini deyən qonaq qeyd etdi ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. "Bakı Prosesi"nin başladığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addım olduğunu deyən Avropa Şurasının Baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.



Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin forumun açılış mərasimində Azərbaycan haqqında söylədiyi fikirləri yüksək qiymətləndirdi. Dövlətimizin başçısı forumda vacib tövsiyələr irəli sürüləcəyinə əminliyini ifadə etdi, bu cür önəmli beynəlxalq toplantının mədəniyyət sahəsində körpülərin, dialoqun qurulmasına mühüm töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirdi. Hazırkı şəraitdə "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlət başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini dedi.

Görüşdə Avropa Şurasının gündəliyində duran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## *ISESCO-nun Baş direktoru:* "Mehriban Əliyevanın humanitar sahədəki fəaliyyəti bütün dünyada xanımlar üçün gözəl nümunədir"

"Bakı Prosesi"nin tərkib hissəsi olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünyanın müxtəlif mədəniyyətləri və dinləri arasında qarşılıqlı anlaşma və əməkdaşlığın təmin olunması baxımından gözəl platformadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri deyib.

"2011-ci ildən keçirilməyə başlayan bu forumun uğurlu olmasının əsas səbəbi Azərbaycan rəhbərliyinin ölkələr arasında dialoq, sülh, qarşılıqlı anlayış kimi dəyərlərə, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında dostluq mühitinin yaradılmasına sadiqliyidir. Məhz bu dəyərlər mədəniyyət və dinlər arasında mövcud anlaşılmazlıqları aradan qaldırmağa kömək edir. Əminəm ki, "Bakı Prosesi" xalqlar arasında əməkdaşlıq və anlaşmanın möhkəmləndirilməsini təmin edəcək, həmin mədəniyyəti formalaşdırmağa təkan verəcək. Təmsil etdiyim ISESCO təşkilatının da bu forumun təşkilatçılarından biri olduğuna görə qürur duyuram", - deyə Əbdüləziz Osman əl-Tuveycri bildirib.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bəşəriyyətə xidmət edən bir çox tədbirlərin fəal iştirakçısı olmasını, eyni zamanda, bu tədbirlərin keçirilməsi istiqamətindəki töhfələrini yüksək qiymətləndirən ISESCO-nun Baş direktoru deyib: "Birinci vitse-prezident Mehriban Əliyeva nəinki ölkə daxilində keçirilən, həmçinin regional və beynəlxalq səviyyəli tədbirlərin fəal iştirakçısıdır. Onun humanitar sahədəki fəaliyyəti, ehtiyacı olan insanlara göstərdiyi diqqət və qayğı nəinki İslam ölkələrində, hətta bütün dünyada xanımların bu zəngin təcrübədən yararlanması üçün gözəl nümunədir".

### Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Andjey Dudaya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Polşa əlaqələri zəngin tarixə və xoş ənənələrə malikdir. İnanıram ki, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi siyasi təmaslarımızın müvəffəqiyyətlə davam etdirilməsi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün daim möhkəm təməl olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2019-cu il*

### Yaponiyanın İmperatoru əlahəzrət Naruhitoya

Əlahəzrət!

Yaponiyanın 126-cı İmperatoru olaraq Taxta çıxmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2019-cu il*

## *Kuani ŞİMON:* "Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib"

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xalqlar, icmalar və cəmiyyətlər arasında dialoq üçün optimal şəraitin və bu şəraitin həm daxili, həm də millətlərarası "müxtəliflik dividendlərini", yəni cəmiyyətlərin daha da müxtəlifləşməsindən irəli gələn fayda və üstünlükləri artırmaq yollarını araşdırmağa imkan yaradacaq.

Bu fikri AZƏRTAC-a müsahibəsində forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, UNESCO-min Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun təhsil vasitəsilə zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssisi Kuani Şimon deyib.



O qeyd edib ki, forumda 105-dən çox ölkə və 35-dən çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirakı "Bakı Prosesi"nin coğrafiyasının və beynəlxalq əməkdaşlığın genişlənməsindən xəbər verir. Forumun Bakıda təşkili Azərbaycanın dünyanın mədəniyyət və mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilməsinə dəlalət edir. Dialoq, anlaşma, sülh, sabitlik, mehriban birgə yaşama, tolerantlıq kimi şüarların və təbliğat işlərinin yayılması olduqca vacibdir. Azərbaycana və Prezident İlham Əliyevə belə bir təşəbbüsü reallaşdırdığına görə təşəkkür edirəm.

# Bakıda bəşəriyyəti narahat edən problemlərin həlli yolları müzakirə olundu

***Əvvəli 1-ci səh.***

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və ölkəmizin rolunu xüsusi vurğuladı.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymin Bakı Forumunun yüksək səviyyədə təşkilinə və bu mühüm tədbirə dəvətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, bu tədbirin Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğunu vurğuladı. İƏT-in Baş katibi mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun çox zəruri olduğunu və bütün ölkələrin bu istiqamətdə səylərini birləşdirmələrinin vacibliyini dedi.

ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakı Forumunun dünyanın ən nüfuzlu tədbirlərindən biri olduğunu dedi. O, indiki dövrdə dünya liderlərinin siyasi iradə göstərməsinin vacibliyini diqqətə çatdırdı, bu baxımdan Prezident İlham Əliyevin nümunəvi mövqe nümayiş etdirdiyini xüsusi vurğuladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğunu, bunun yolverilməz olduğunu deyən Əbdüləziz Osman əl-Tuveycri dünyanı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına dəstək verməyə çağırdı.

"Konstruktiv dünyanın qurulması üçün nələr etmək lazım olduğunu müzakirə edəcəyik. Əks halda dünyamızı müharibələr bürüyəcək". Beynəlxalq ekspert qrupunun rəhbəri, Böyük Britaniya Koventri Universitetinin professoru Maykl Hardi onu da vurğuladı ki, forumda həmçinin gənclərdən nələr öyrənə bilməyin yollarından da söhbət açılacaq: "Eyni zamanda panellərdə miqrasiya məsələləri də müzakirə ediləcək. Çünki miqrasiya məsələləri gündəmdədir. Biz bu sahədə vəziyyəti təkmilləşdirməyə çalışacağıq. Ona görə də Bakı forumu bizim üçün önəmlidir".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## *Migel SİLVA:* "Foruma çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir"

Forumun çox zəngin proqramı var. İki gün ərzində bizim müzakirə edəcəyimiz məsələlər beynəlxalq əməkdaşlıq baxımından çox önəmlidir. Forum müxtəlif ölkələrdən olan nüfuzlu alimlərin, siyasi və ictimai xadimlərin bir yerə toplaşaraq mövcud çətinlikləri, problemləri və onların həlli yollarını müzakirə etməsinə imkan yaradır.



Bu fikri AZƏRTAC-a müsahibəsində forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva deyib.

O bildirib ki, dünyada şiddətə, zorakılığa qarşı mübarizə aparmaq istəyən, sülh, qarşılıqlı anlaşma uğrunda çalışan insanların sayı durmadan artır. Bakıda təşkil edilən forumun iştirakçılarının sayı da bunu deməyə əsas verir. Azərbaycan hökuməti tərəfindən builki foruma dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir. Bu forum dünyanı narahat edən çağırışların həlli yollarını tapmaqla bağlı səmərəli müzakirələrin aparılması baxımından xüsusi əhəmiyyət daşıyır.

## "Bakı Prosesi" on il ərzində fikir mübadiləsi üçün pozitiv platforma yaradıb

"Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu əməkdaşlığın qurulması baxımından mühüm rola malikdir.



Bu fikri AZƏRTAC-a müsahibəsində forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, İsveçrənin Mədəniyyətlərarası Təhsil, Təlim və Tədqiqat Cəmiyyətinin prezidenti Ann-Klod Lambelet deyib.

O bildirib ki, 2008-ci ildən həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında anlayış, səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platforma yarada bilib. "Bu gün biz sessiyamızda sülh mədəniyyətinin təbliğ olunmasını, sülh və inkişafa nail olmaq məqsədilə mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik məsələlərini müzakirə edirik. İnanıram ki, müzakirələrdən önəmli nəticələr əldə edəcəyik", - deyə Ann-Klod Lambelet vurğulayıb.

1923 Azərbaycanın özü qədər əbədi 2019

# Heydər ƏLİYEV: İki formasiya - Bir memar

**"Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir".**

**İlham ƏLİYEV**



**Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinə son 50 ildə iki fərqli formasiyada uğurla öndərlik edən dahi lider olmuşdur. Azərbaycan dövlətinin son yarıməsrlik inkişaf tarixi və Heydər Əliyev şəxsiyyəti arasındakı münasibətlər "tarix şəxsiyyəti yaradır, yoxsa şəxsiyyət tarixi" dilemmasına verilən ən dolğun cavabdır.**

## Heydər Əliyev - tarixin memarı

Heydər Əliyev Azərbaycan tarixinin parlaq şəxsiyyətidir və müstəqil Azərbaycan Respublikası onun şah əsəridir. Heydər Əliyev gəncliyində Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdu, memar olmaq istəyirdi. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməsə də, Heydər Əliyev tarixin memarı oldu. Tarix yaradan şəxsiyyət kimi əvvəlcə sovet dövründə, sonradan isə müstəqillik illərində Azərbaycan dövlətinin memarı oldu.

Memarlıq - inşaat incəsənətidir. Heydər Əliyevin qurduğu Azərbaycan dövləti, dizayn verdiyi iqtisadi model və yön verdiyi mədəni inkişaf monumental memarlıq nümunəsidir.

Məşhur britaniyalı memar Zaha Hadidin Bakıda layihələndirdiyi Heydər Əliyev Mərkəzinin Britaniyada "Design Of The Year" müsabiqəsində əsas mükafata layiq görülməsi həm də tarixin bir dərsi idi. Heydər Əliyevin adını əbədiləşdirən bu monumental layihə həm də onun tarixi memar rolunu təcəssüm etdirən sənət əsəridir.

## Heydər Əliyev və sovet dövrü

Ötən əsrin 60-cı illərində sənaye və kənd təsərrüfatının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə, habelə əhalinin yaşayış səviyyəsinə görə Azərbaycan ittifaq səviyyəsindən geridə qalırdı. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü məhz belə bir çətin vəziyyətdə başlamışdır. Respublikaya yeni nəfəs, modernləşmə və konseptual yanaşma tələb olunurdu. Heydər Əliyevin apardığı quruculuq işləri və onun şəxsiyyətinə ittifaq səviyyəsində olan hörmətin nəticəsində Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Bu illərdə elm tutumlu sənayenin, o cümlədən elektrik energetikasının, maşınqayırmanın, kimya və neftkimyanın, həmçinin kənd təsərrüfatının sürətli inkişafı təmin olundu, Azərbaycan əksər iqtisadi göstəricilərinə görə orta ittifaq səviyyəsini ötdü. Azərbaycan istehsalı olan kondisioner, soyuducu və digər sənaye brendləri, nəinki ittifaq bazarlarında satılırdı, hətta xarici ölkələrə ixrac olunmağa başlamışdı.

1969-cu ilə nisbətən 1982-ci ildə faktiki qiymətlərlə respublikada ümumi ictimai məhsul 749,1 milyon manatdan 2292,7 milyon manata, milli gəlir 329,2 milyon manatdan 1045,8 milyon manata, sənaye məhsulunun ümumi həcmi 407 milyon manatdan 1207,7 milyon manata və kənd təsərrüfatının ümumi məhsulu 97,5 milyon manatdan 383,5 milyon manata çatmışdır. Heydər Əliyev iqtisadiyyatın əsas probleminin həllinə - məhsuldarlığın artırılmasına nail olmuşdur: 1969-1982-ci illərdə Azərbaycanda ictimai əmək məhsuldarlığı 1,8 dəfə və əhalinin hər nəfərinə düşən pul gəlirləri 2 dəfə artmışdır.

Heydər Əliyev 1976-cı ilin oktyabr ayında məruzəsində demişdi: *"Mahiyyət etibarı ilə biz Azərbaycanın inkişafının sosial, iqtisadi, elmi-texniki dəyişikliklər səciyyəsinə görə həqiqətən tarixi əhəmiyyətə malik keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm basırıq".*

Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və Sovet İttifaqında Rusiya və Azərbaycan özünü təmin edən və donor respublika idi.

Heydər Əliyevin Azərbaycan miqyasına sığmayan istedadı və təcrübəsi onun sovet rəhbərliyinə yüksəlməsi ilə nəticələndi. 1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib. Moskvada olmasına baxmayaraq Azərbaycanda mövcud vəziyyət, Azərbaycanın problemləri onu daim maraqlandırırdı və o çalışırdı ki, yeni imkanlardan istifadə edərək Azərbaycana kömək etsin. O vaxt Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdir.

1987-ci ildə Heydər Əliyevin Sovet rəhbərliyindən istefasından sonra Azərbaycanın problemləri başladı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu və respublikada ictimai-siyasi və sosial-iqtisadi böhran getdikcə dərinləşməyə başladı.

## Azərbaycanın iqtisadi inkişaf modelinin banisi

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Ermənistanın işğalının qarşısını almaqla bərabər, həm də dövləti içəridən sarsıdan vətəndaş qarşıdurmasını, siyasi böhranı, kənardan ruhlandırılan separatizmi və hərbi müxalifəti aradan qaldırdı. Beləliklə, vətəndaş müharibəsindən vətəndaş sülhünə, xaosdan sabitliyə, separatizmdən milli həmrəyliyə, ideoloji boşluqdan azərbaycançılıq ideologiyasına, siyasi böhrandan dövlətçiliyə, iqtisadi tənəzzüldən tərəqqiyə, səriştəsizlikdən dərin təcrübəyə və xarici siyasətdə milli maraqlara söykənən çoxvektorluluğa keçidi təmin etdi.

Ulu öndər milli dövlətçiliyin qurulmasında alqoritmi belə müəyyənləşdirmişdi: işğalın dayandırılması və Horadiz əməliyyatı ilə düşmənin geri oturdulması, ictimai-siyasi sabitliyin təmin olunması, neft müqavilələrinin imzalanması və sosial-iqtisadi islahatlara başlanılması. Bütün bunlar üçün ulu öndərin "böyük dayağı" Azərbaycan xalqı və millətin Heydər Əliyevə olan inamı idi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını təqdim etdi və bu gün də azərbaycançılıq fəlsəfəsi bizim mühüm ideoloji əsasımızdır. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır. Bu gün də "Əsrin müqaviləsi"nın əhəmiyyətini hər bir Azərbaycan vətəndaşı gündəlik həyatında görür. Abadlaşan şəhərlər, gözəlləşən ölkəmiz, yaradılan infrastruktur və inkişafda olan Vətənimiz - bütün bunların əsas səbəbi o vaxt Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi idi.

Heydər Əliyevin apardığı siyasət nəticəsində 1993-1995-ci illərdə iqtisadi geriləmənin qarşısı alındı, ümumi daxili məhsul 1996-2002-ci illər ərzində 71 faiz artaraq 2002-ci ildə 6,1 milyard manata çatdı.

## Siyasi sabitlik makroiqtisadi sabitlik üçün əsas oldu

1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycan iqtisadiyyatı dərin böhran içindəydi: iqtisadi geriləmə, büdcə və tədiyyə balansının kəsiri, işsizlik və yoxsulluğun yüksək həddi, hiperinflyasiya. Ən əsası köhnə iqtisadi sistem iflic vəziyyətdə olduğu halda, yenisi yaradılmamışdı. Lakin Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin edəndən və "Əsrin müqaviləsi" imzalanandan sonra yeni iqtisadi modelin əsası qoyuldu. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manat, xərcləri isə 71,7 dəfə artaraq 931,8 milyon manat olmuşdur. Büdcə kəsirinin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ildəki 7,3 faizdən 2002-ci ildə 0,4 faizə enmişdir.

1994-cü ildən başlayaraq Azərbaycana xarici sərmayələrin axını ildən-ilə artaraq, 2002-ci ildə 2,2 milyard ABŞ dollarına çatmışdır. Bu illər ərzində fəaliyyət göstərən müştərək və tam xarici investisiyalı müəssisələr tərəfindən Azərbaycanın iqtisadiyyatına 1,6 milyard ABŞ dolları məbləğində vəsait qoyulmuşdur. 2002-ci ildə ölkədə sahibkarlığın inkişafı istiqamətində aparılmış məqsədyönlü iqtisadi siyasət nəticəsində hüquqi şəxs kimi fəaliyyət göstərən müəssisə və təşkilatların sayı artaraq 59130-a çatmışdır.

Dövlət əmlakının özəlləşdirilməsi prosesi nəticəsində xüsusi mülkiyyət formalı müəssisələrin sayı xeyli artmışdır. 1996-cı ildə Statistik Vahidlərin Dövlət reyestrində 29629, 2002-ci ildə isə 40773 xüsusi mülkiyyət formalı müəssisə qeydiyyatdan keçmişdir. 1996-cı ildə ölkədə fəaliyyət göstərən 100 faiz xarici investisiyalı müəssisələrin, onların filial və nümayəndəliklərinin sayı 602, 2002-ci ildə isə 3,5 dəfə artaraq 2104 olmuşdur. Bu dövr ərzində xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı 2 dəfə artaraq 957-yə çatmışdır.

1996-cı ildən başlayaraq iqtisadi artım tempi bərpa edilmiş, hiperinflyasiya cilovlanmışdır.

## Heydər Əliyev iqtisadi islahatları aqrar sahədən başladı

Heydər Əliyevin müstəqilliyimizin ilk illərində apardığı aqrar islahatlar bir neçə cəhətdən diqqəti çəkir. Birincisi, 1994-cü ilin sentyabr ayında keçirilən müşavirədə ulu öndər Heydər Əliyev aqrar islahatların əsas mahiyyətini müəyyənləşdirdi və bildirdi ki, kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Heydər Əliyev iqtisadi islahatları məhz aqrar sahədən başladı.

İkincisi, o dövrdə kifayət qədər inqilabi sayılacaq torpaq islahatı aparıldı: kəndli torpağın sahibinə çevrildi. Vahid torpaq fondunun 57 faizi dövlət mülkiyyətində qalmaqla 20 faizi bələdiyyə mülkiyyətinə və 23 faizi, əsasən də münbit torpaqlar xüsusi mülkiyyətə verildi. Torpağın özəlləşdirilməsi sayəsində 857,6 min ailə öz payına sahib olmuşdur. Orta hesabla bir ailəyə 1,6 hektar, cəmi isə 1375,5 min hektar torpaq sahəsi əvəzsiz verilmişdir.

Üçüncüsü, kolxoz-sovxozların islahatı aqrar sahədə təşkilati, hüquqi və institutsional formanı dəyişdi - çoxukladlılığa keçid təmin edildi. Aqrar sahədə bazar prinsipləri tam bərqərar oldu.

Beləliklə, Heydər Əliyevin apardığı aqrar islahatlar nəticəsində iqtisadi təhlükəsizliyin əsas komponenti olan ərzaq təhlükəsizliyinin həlli və aqrar inkişafın trayektoriyası müəyyənləşdi. Bunun nəticəsində 1996-2002-ci illərdə kənd təsərrüfatında əlavə dəyər 40,3 faiz artdı. 2002-ci ildə 2,2 milyon ton taxıl, 694,9 min ton kartof, 974,6 min ton tərəvəz və 330,3 min ton bostan məhsulları istehsal edilməklə 1993-cü ilə nisbətən onların istehsal həcmi müvafiq olaraq 1,9; 4,6; 2 və 7 dəfə artmışdır.

## Heydər Əliyevin neft strategiyası regionun gələcəyini müəyyənləşdirdi

Ulu öndər Azərbaycanın neft strategiyasının əsasını qoymaqla Xəzər hövzəsi, Qara dəniz hövzəsi, Yaxın Şərq və Avropanın enerji xəritəsini və qüvvələr balansını yenidən şəkilləndirdi. Avrasiyanın mərkəzində kiçik bir ölkə olaraq Azərbaycan neft-qaz layihələrində liderliyi ələ aldı və özündən miqyasca dəfələrlə böyük coğrafiyanın enerji təhlükəsizliyinə önəmli töhfələr verdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanıb. Bu, neft strategiyasının əsasını təşkil edən, ölkənin gələcəyi üçün yeni perspektivlər açan və sonrakı illərin təcrübəsində öz layiqli tarixi qiymətini alan "Əsrin müqaviləsi"dir.

Dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) qapalı hövzə olan Xəzərə Azərbaycanın liderliyilə gəldilər. Heydər Əliyevin öndərliyilə 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından ilk neft hasil edildi, 1997-ci ildə neft Bakı-Novorossiysk və 1999-cu ildə Bakı-Supsa kəməri ilə Qara dənizə çıxarıldı, 2002-ci ildə isə əfsanəvi Bakı-Tbilisi-Ceyhanın təməli qoyuldu. 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz və ya orta hesabla hər il 3,6 faiz artmışdır. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft emal sənayesi də inkişaf etmişdir. 1999-2002-ci illər ərzində emal sənayesi sahələrində məhsul istehsalı 13,6 faiz artmışdır.

## Heydər Əliyev Azərbaycanda sosial bazar modelinin müəllifidir

Azərbaycan dövlətçiliyinin təməlində dayanan humanizm prinsipinə uyğun olaraq Heydər Əliyev Azərbaycanda sosial bazar modelinin əsasını qoymuşdur. Sosial ədalət və milli həmrəylik bu modelin təməlində dayanır. Ulu öndər böyük ustalıqla iqtisadi azadlıq və sosial cavabdehliyi bir-birilə uzlaşdırmaqla ictimai harmoniyanı təmin etmişdir. Yenicə müstəqillik qazanmış ölkədə hərbi təcavüz, siyasi, iqtisadi və sosial kataklizmlərdən sonra cəmiyyəti tarazlıq halına gətirmək, yoxsulluqla mübarizə və sosial rifahı yaxşılaşdırmaq çətin bir vəzifə idi. Buna baxmayaraq Heydər Əliyevin apardığı islahatlar nəticəsində 1996-2002-ci illərdə əhalinin real gəlirləri 2,6 dəfə artmışdır. 1995-2002-ci illər ərzində orta aylıq əməkhaqqı 5 dəfədən çox artaraq 63,1 manat təşkil etmişdir. Dövlət büdcəsinin xərclərində sosial müdafiə və sosial təminat xərclərinin payı ildən-ilə artmışdır. 1993-cü ildə bu məqsədlərə 1,1 milyon manat xərclənmişdirsə, 2002-ci ildə bu xərclər 190,3 milyon manata çatmışdır.

1993-cü ildə 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 703 nəfərinin ali və tam orta təhsili olduğu halda, 2002-ci ildə bu göstərici 753-ə çatmışdır. 2002-2003-cü dərs ilinin əvvəlinə 4533 dövlət və 9 qeyri-dövlət ümumtəhsil məktəblərində 1692 min nəfər və ya 1993-1994-cü dərs ilindəkindən 19 faiz çox şagird təhsil almışdır. 2002-2003-cü dərs ilinin əvvəlinə Azərbaycanın təhsil sistemində 41 ali və 58 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərmiş, onlarda müvafiq olaraq 120 min tələbə ali ixtisas və 51 min tələbə orta ixtisas təhsili almışdır. 1993-94-cü dərs ili ilə müqayisədə ali təhsil müəssisələrinin kontingenti 27 faiz, orta ixtisas təhsil müəssisələrinin kontingenti isə 52 faiz artmışdır. Ulu öndər Heydər Əliyev dövlətin məhdud maliyyə imkanlarına rəğmən gənclərin xaricdə təhsilini dəstəkləmişdir. 2002-2003-cü dərs ilinin əvvəlinə 885 nəfər Azərbaycan vətəndaşı dövlət xətti ilə bir sıra dünya ölkələrinin məşhur ali təhsil müəssisələrində təhsillərini davam etdirmişdir.

2002-ci ildə respublikada əhalinin sağlamlığının keşiyində 29,5 min həkimi və 59 min orta tibb işçisi duran 738 xəstəxana və 1603 ambulator-poliklinika müəssisələri fəaliyyət göstərmişdir. 1993-cü illə müqayisədə 2002-ci ildə həkimlərin sayı 2 faiz artmışdır.

1993-2002-ci illərdə ölkə əhalisinin sayı 719,6 min nəfər artaraq 8269,2 min nəfərə çatmışdır.

Heydər Əliyev Azərbaycana sabitlik gətirdi. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. Bu münasibətlə Prezident İlham Əliyev belə demişdir: "Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir".

## Heydər Əliyevin əmanəti

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına iki əmanəti saxladı: Birincisi, Azərbaycan Respublikası onun şah əsəridir. İkincisi, Heydər Əliyev məktəbinin parlaq məzunu İlham Əliyevdir. Bu gün Prezident İlham Əliyev ulu öndərin yaratdığı strategiyanın əsasında, məhz ulu öndərin zəngin irsinə əsaslanaraq Azərbaycan Respublikasını uğurla inkişaf etdirir.

*Prezident İlham Əliyev ulu öndər haqqında belə demişdir: "Ulu öndər həmişə olduğu kimi, xalqa son müraciətində də düzgün proqnoz verdi. O, inanırdı və bildirdi ki, onun davamçıları onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz - onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, onun ideyalarını yaşadırıq. Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik".*

**Natiq ƏMİROV,**
***Azərbaycan Respublikasının Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi-şöbə müdiri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2019

# Azərbaycanın şərəf tarixinin müəllifi



*Əvvəli 1-ci səh.*

Hələ 1969-cu il iyulun 14-də Azərbaycanda rəhbərliyə başlayan Heydər Əliyev respublikada qanunçuluğun gücləndirilməsinə başlamış, məmur özbaşınalığına, rüşvətxorluğa qarşı amansız mübarizə aparmışdır. Bu mərhələdən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir.

Müstəqil Azərbaycanın 25 ildən çox müddətdə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar da ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. Ulu öndər Heydər Əliyev bu gün həm də keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını işləyib həyata keçirmiş lider kimi ehtiramla xatırlanır.

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix böyük strategin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-sosial, mənəvi və intellektual potensiala istinad etmişdir. Bu nöqteyi-nəzərdən Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndər bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini onun iqtisadi azadlığı şərtləndirir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir. Ulu öndər ölkənin gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürmüş, strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikamızda inşasına nail olmuşdur. Böyük strateqin həmin illərdə Bakı məişət kondisionerləri və dərin özüllər zavodlarının tikintisi ilə bağlı nümayiş etdirdiyi yüksək qətiyyət, prinsipiallıq bunu bir daha təsdiqləyir.

Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində də mühüm tədbirlər həyata keçirmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın ittifaq miqyasında öncül mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə təkan vermişdir.

Ümumilikdə 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikada onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutmuş, respublikada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir.

Bütövlükdə 14 il ərzində respublikada əvvəlki yarım əsrdəki qədər sənaye məhsulu istehsal olunmuş, sənaye istehsalı 2,7 dəfə artmış və 1969-cu ilə qədər aqrar respublika hesab olunan Azərbaycanın ümumi daxili məhsulunda sənayenin payı 66 faizə yüksəlmişdi. Həmin illərdə kənd təsərrüfatı məhsulları 2,5 dəfə artmış, pambıq istehsalı 300 min tondan 1 milyon tona, üzüm istehsalı isə 272 min tondan 2 milyon tona çatmışdı. Azərbaycan ittifaqda yetişdirilən pambığın 9,2, üzümün isə 27 faizini vermişdi. 1969-1982-ci illərdə milli gəlir 2,6 dəfə artmış və Azərbaycan iqtisadiyyatının inkişafına 7,2 milyard manatlıq, yaxud əvvəlki 50 ildəkindən 4,5 dəfə çox kapital qoyulmuşdu. Artıq 1982-ci ildə bu rəqəm 1952-ci ildəkini 30 dəfə üstələyirdi.

Ümummilli liderin böyük qətiyyət və iradə əsasında formalaşdırmağa başladığı sənaye potensialı əsasında respublikamız 70-ci illərdə neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektromaqnit avadanlığı, soyuducular, sintetik kauçuk, boruprokat, şüşə və şüşə qablar və s. istehsalına görə ittifaq miqyasında qabaqcıl mövqeyə çıxmışdır. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bugünün özündə də milli iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir.

Respublikaya birinci rəhbərliyi dövründə ulu öndər Heydər Əliyev qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmiş, bununla da respublika regionlarının tarazlı qaydada inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, demoqrafik inkişafa, kənd və qəsəbələrin sosial-mədəni simasının müasirləşməsinə dair strateji məqsədləri ardıcıllıqla həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni belə reallığa çevirmişdir.

1982-ci ilin dekabrında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçilməsi onun böyüklüyünün və müdrikliyinin ittifaq rəhbərliyi səviyyəsində etirafı olmuşdur. Ümummilli liderin səlahiyyət dairəsinə nəqliyyatdan sənayeyə, neftdən sosial infrastrukturadək iqtisadiyyatın ən önəmli sahələri, həmçinin mədəniyyət, Yaxın Şərq diplomatiyası kimi olduqca vacib istiqamətlər aid idi. Bu dövrdə Heydər Əliyev ittifaq miqyasında, ən əsası isə xaricdə görkəmli dövlət xadimi, qurucu lider, birləşdirici siyasətçi kimi tanınmış və qəbul edilmişdi.

Beş il ərzində Heydər Əliyev Azərbaycanda gedən ictimai-siyasi və mədəni prosesləri uzaq Moskvadan müşahidə etsə də, ildə azı bir dəfə vətənə gələrək insanlarla görüşmüş, respublikanın daxili həyatı haqqında daha səhih məlumatlar almağa çalışmışdır. Ulu öndər son dərəcə gərgin iş rejiminə baxmayaraq Azərbaycan haqqında məlumatlarla daim maraqlanmışdır. Ümummilli lider Moskvada işlədiyi illərdə də Azərbaycanla bağlı məsələlərdə daim əzmkarlıq göstərmiş, yüksək ortaya qoymuş, mərkəzin yeritdiyi siyasətin ayrı-ayrı çalarları ilə bağlı tənqidi fikirlərini, mülahizələrini ortaya qoymuşdur.

Qısa müddətdə qazandığı yüksək nüfuz liderimizə qarşı şər cəbhəsinin də yaranmasına səbəb oldu. 1987-ci ildə bütün rəhbər vəzifələrdən istefa verən ulu öndərə xalqı və taleyi heç də təqaüdçü statusu vermədi. Qarşıda onu daha məsuliyyətli, daha fədakar fəaliyyət gözləyirdi. Amma bu dövrdə hər bir vətəndaşımız üçün vacib bir məqam da özünü təsdiq etdi. 1969-1987-ci illər, yəni Heydər Əliyev dövrü necə böyük uğurlarla, möhtəşəm quruculuqla müşayiət olundusa, 1987-1993-cü illər - Heydər Əliyevin rəhbərlikdə olmadığı müddət böyük faciələrlə, itkilərlə, böhranlarla keçdi. Biz Heydər Əliyevsizliyin necə böyük məşəqqətlərə rəvac verdiyini yüzlərlə acı faktın timsalında aydın hiss etdik.

Tarix boyu böyük siyasi liderlər üçün səciyyəvi keyfiyyətlərdən biri də onların xalq və dövlət üçün ən böhranlı, çətin sınaq anlarında məsuliyyəti çiyinlərinə götürmələri, bütöv bir xalqın, millətin xilaskarına çevrilmələri olmuşdur. Bu mənada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin idarəçilik keyfiyyətləri sırasında onun ən çətin, millətin taleyi baxımından məsuliyyətli zamanlarda düzgün qərarlar qəbul etmək məharətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan özünün dövlət müstəqilliyinin bərpasından cəmi 2 il sonra - 1993-cü ildə çətin sınaqlarla üz-üzə qalanda xalqın yeganə xilaskarı kimi ulu öndər Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də bu gerçəklikdən qaynaqlanmışdır.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan ümummilli lider Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. Ulu öndər ictimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını təmin etmişdir.

Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatların aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanmış, 1994-cü ildən etibarən mərhələlərlə həyata keçirilmişdir.

Ümumiyyətlə, Azərbaycan rəhbərliyi həmin illərdə heç bir səhvə yol vermədən aparıcı Qərb şirkətləri ilə aparılan danışıqların məntiqi sonluqla yekunlaşmasına nail olmuş, 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" adlı qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirilmişdir. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoymuşdur. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə mənimsənilməsini nəzərdə tutan bu sazişin reallaşması təkcə respublikamız üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyət daşımışdır. Bu qlobal enerji müqaviləsi Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqləmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyamız demokratiya və azad bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycanda siyasi sistemin modernləşdirilməsinə, vətəndaşların hüquq və vəzifələrinin sərhədlərinin dəqiq şəkildə müəyyənləşdirilməsinə, hakimiyyət bölgüsü prinsipinin tam şəkildə bərqərar olmasına imkan yaratmışdır. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu ideyasının təməl prinsiplərini özündə ehtiva edən bu Konstitusiya ötən müddətdə ictimai münasibətlərin sivil şəkildə tənzimlənməsinə, dövlətlə vətəndaş arasında qarşılıqlı məsuliyyət və vəzifələrin müəyyənləşdirilməsinə mükəmməl mexanizmlər yaratmışdır. Cəmiyyətin hüquq sisteminin fundamental əsasını təşkil edən Konstitusiyanın demokratikliyi, hamılıqla qəbul edilmiş ümumbəşəri norma və prinsiplərə cavab verməsi isə adekvat olaraq ictimai münasibətləri tənzimləyən qanunların liberallığında, insan və vətəndaş hüquq-azadlıqlarına maksimum təminat yaratmasında real təcəssümünü tapmışdır.

Yeni qəbul olunmuş Konstitusiyanın tələblərinə uyğun olaraq iqtisadi inkişafın sürətləndirilməsinə xidmət edən mükəmməl qanunvericilik bazası yaradılmasına başlanılmışdı. Qanunvericilik təşəbbüsü əsasında iqtisadiyyatın ayrı-ayrı sahələrini tənzimləyən qanun layihələrini Milli Məclisin müzakirəsinə göndərən Heydər Əliyev onların demokratik prinsiplərlə və aşkarlıq şəraitində müzakirəsini də vacib saymışdı. Bu dövrdə qəbul olunmuş iqtisadi qanunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratmışdı. 1995-2003-cü illərdə qəbul edilmiş 1715 qanundan 975-i məhz ümummilli liderin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunmuşdu.

Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. 1995-ci ildən etibarən respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələləri daim diqqət mərkəzində saxlanılmışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunan qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdır.

Ümumiyyətlə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni - Azərbaycan modelinin formalaşmasına zəmin yaratmışdır. Bu modelin ən fərqləndirici xüsusiyyətini isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi; iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması; sosialyönümlülüyün gözlənilməsi; milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Heydər Əliyevin yaratdığı möhtəşəm əsərlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Bu təşkilatın yaradılması ilə Azərbaycanın siyasi, ictimai, dövlət həyatında yeni dövrün başlanğıcı qoyuldu. Yeni Azərbaycan Partiyası yarandığı gündən ortaya qoyduğu fəaliyyət nümunəsi ilə dövlətimizin, xalqımızın maraqlarını ən yüksək səviyyədə müdafiə etməklə və atdığı addımlarda ictimai maraqlardan çıxış edərək ümumxalq partiyasına çevrildi. Sıralarında 700 mindən artıq üzvü birləşdirərək Azərbaycan cəmiyyətinin aparıcı ictimai-siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası, ulu öndərin təbirincə desək, nəinki dünənin, eləcə də bu günün və sabahın partiyası oldu. Son 26 ildə bütün seçkilərin şəriksiz qalibi olan YAP həm də Cənubi Qafqazın ən böyük siyasi gücüdür.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın uğurlu inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toparlayır. Həm də onunla qürur duyuruq ki, ümummilli liderin cənab İlham Əliyev kimi xalqının, dövlətinin maraqlarını daim uca tutan, hər bir vətəndaşın mənafeyini nəzərə alan, bir sözlə, hər vədini əməli işi ilə doğruldan layiqli siyasi davamçısı var.

Azərbaycan xalqına son müraciətində ulu öndər cənab İlham Əliyev haqqında "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikrini səsləndirməklə həm layiqli varis yetirdiyinin müjdəsini xalqa verir, həm də vətəndaşlarının da bu rəydə olduğunu ifadə edirdi. Həqiqətən də, 2003-cü ilədək cənab İlham Əliyev Azərbaycanda Heydər Əliyev kursunun yeganə davamçısı kimi qəbul edilir, onun liderliyinin alternativsizliyi birmənalı həqiqət sayılırdı.

Fəaliyyətə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" məramı ilə başlayan dövlət başçısı son 16 ildə əsas məqsədinin məhz real iş - konkret fəaliyyət olduğunu əməli surətdə təsdiqləmiş, verdiyi bütün vədləri layiqincə doğrultmuşdur. Ölkəyə rəhbərlik etdiyi dövrdə qəbul olunan fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini, reallığa adekvat olduğunu göstərmiş, onun ictimai rəydə alternativsiz rəhbərliyini şərtləndirmişdir.

2003-cü ildən etibarən ölkədə sahibkarlığın inkişafına mane olan süni amillərin aradan qaldırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni istehsal müəssisələrinin yaradılması, regional disbalansın aradan qaldırılması, yoxsulluğun azaldılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması, infrastrukturun yeniləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar praktik nəticələrini verir. Son illər məlum geosiyasi səbəblərlə bağlı neftin qiymətinin 2-3 dəfəyədək aşağı salınması və neft-qaz ölkələrinin süni böhranla üz-üzə qoyulması fonunda respublikamızın nümayiş etdirdiyi makroiqtisadi dayanıqlıq milli inkişaf modelinin qlobal təhdidlərə çevik müqavimət əzmini bir daha nümayiş etdirir.

Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, böhranın milli iqtisadiyyata şok təsirlərinin aradan qaldırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədini önə çəkir. Dövlət başçısının son illərdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, cənab İlham Əliyev Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin ardıcıl şəkildə reallaşdırılması üçün dövlət başçısı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, sahibkarlığın inkişafı, bu sahəyə dövlət dəstəyinin təmini, dövlət əmlakının sağlam əsaslarla özəlləşdirilməsi, dövlət qeydiyyatının sadələşdirilməsi, özəl sektorda əsassız yoxlamaların dayandırılması, korrupsiyaya qarşı effektiv mübarizənin təşkili, xüsusi iqtisadi zonaların yaradılması, ümumiyyətlə, onlarla istiqamət üzrə dövlət proqramları, sərəncam və fərmanlar imzaladı.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev "Prezident İlham Əliyevin İqtisadi İnkişaf strategiyasının əsas istiqamətləri" məqaləsində ölkəmizin son 15 ildə keçdiyi inkişaf yoluna fundamental nəzər salır: "Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqramlar qəbul edilmişdir. Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır".

Beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirən Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft, Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Son illərdə reallaşdırılan ən mühüm layihələrdən olan "Cənub qaz dəhlizi" layihəsi enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii enerji təchizatçılarından birinə çevirmişdir.

Ötən 15 ildə Azərbaycanın tranzit imkanlarının reallaşması üçün digər iri layihələr də uğurla reallaşdırılmışdır. Bu baxımdan Ələt Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, TRASECA, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Azərbaycanın 3 peykinin orbitə buraxılması xüsusi vurğulanmalıdır. Bu günlərdə Çin Xalq Respublikasında təşkil olunmuş "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən dövlət başçısı Azərbaycanın qitələri birləşdirən mühüm tranzit körpüsü olduğunu bir daha real faktlarla təsdiq etmişdir. Ümumiyyətlə, həmin forum Azərbaycanın bu beynəlxalq layihədə fəal iştirakçı kimi qəbul edildiyini müfəssəl nümayiş etdirdi.

Azərbaycan reallığında hökumətin mütəmadi olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda, cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın sosialyönümlü siyasət strategiyası da son 1 ildə yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. 2018-ci il 11 aprel tarixində xalqımızın azad iradəsilə demokratik şəraitdə növbəti dəfə prezident seçilmiş cənab İlham Əliyev qısa müddətdə hər bir vətəndaşın mənafeyinə xidmət edən islahatları daha da sürətləndirmişdir. Hökumətin tərkibinin yenilənməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsi, sosial sifariş amilinə daha həssas münasibətin ifadəsi son 1 ildə həyata keçirilən islahatların səmərəliliyini yüksəltmişdir.

Bu sahədəki islahatları haqlı olaraq sosial paket kimi səciyyələndirirlər. Son 4 ayda Prezidentin yeni sosial paketinin icrası ümumilikdə 3, 5 milyon insanı əhatə edir ki, bu göstərici və qayğı nümunəsinin dünyada həqiqətən də analoqu yoxdur. Ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödənişin edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikintisi, minimum əməkhaqqının, sosial müavinət, pensiya və tələbə təqaüdlərinin artırılması, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borclarının müəyyən şərtlər civarında kompensasiya edilməsi, yanğından zərər çəkmiş sahibkarlara kompensasiyanın ödənilməsi, Azərbaycanın 10 milyonuncu vətəndaşının ailəsinə yüksək diqqətin göstərilməsi və digər sosialyönümlü addımlar bunun əyani göstəricisidir.

Xatırlatmaq lazımdır ki, keçmiş ittifaq respublikaları arasında ilk dəfə məhz Azərbaycanda vətəndaşların sovet dövründən banklarda qalmış əmanətlərinin ədalətli şəkildə qaytarılması təmin edilmişdir. Bir dönəmdə əhalinin, mavi yanacaq və suya görə borclarının silinməsi də sosialyönümlü islahatlar sırasındadır. Ölkəmizin sosial-iqtisadi inkişafında qazanılmış uğurlar, əldə olunmuş makroiqtisadi sabitlik, Azərbaycan dövlətinin maliyyə islahatlarının aparılmasına imkan verməklə yanaşı, həm də Azərbaycan Prezidentinin vətəndaşlara yüksək qayğısının real təzahürü olmuşdur.

Aparılan islahatların nəticəsi olaraq Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından olan Dünya İqtisadi Forumunun açıqladığı "2018-2019" Qlobal Rəqabətlilik Hesabatı"nda iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır. Ümumilikdə ölkəmiz "Qlobal rəqabət qabiliyyəti" hesabatları üzrə 2005-ci ildən 2017-ci ilədək 69-cu yerdən 34 pillə irəliləyərək 35-ci yerə yüksəlmiş, 2009-cu ildən indiyədək MDB-də liderliyini qoruyub saxlamışdır. Dünya İqtisadi Forumunun nüfuzlu indeksi sayılan "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında isə Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşmışdır. Respublikamızın hesabatda inkişaf etməkdə olan ölkələri geridə qoyması cənab İlham Əliyevin həyata keçirdiyi sürətli, məqsədyönlü və inklüziv iqtisadi islahatlara beynəlxalq qiymətdir.

Bu islahatların uğurla reallaşdırılmasına Azərbaycanın Birinci-vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva da layiqli töhfələrini verir. Ümumiyyətlə, 2016-cı il 26 sentyabr tarixli ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə çoxşaxəli fəaliyyəti ilə milyonların sevgisini qazanmış layiqli bir şəxsiyyətin təyin olunması Azərbaycanın müasir dövlət idarəetməsi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuşdur. Ötən 2 ilin reallıqları fonunda Azərbaycanın birinci xanımının bu strateji posta ən layiqli namizəd olduğunu bu gün cəmiyyətdə mütləq çoxluq etiraf edir, dövlət başçısının təyinatını ölkənin hazırkı və gələcək inkişaf perspektivləri baxımından vacib sayırlar. Yalnız bu səbəbdən ki, istər Heydər Əliyev Fondunun prezidenti, istərsə də Milli Məclisin deputatı olaraq Mehriban xanım Əliyeva insan amilini hər zaman uca tutmuş, cəmiyyətdə insanpərvərlik, humanizm kimi dəyərlərin möhkəm əsaslarla intişar tapmasına çalışmışdır.

İslahatlarla bağlı Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Dövlət rəhbərinin müəyyən etdiyi prioritetlərin icrasına ümumxalq dəstəyini hər an izləyirik. Bu gün Azərbaycan xalqı İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir.

*Xalqımız Azərbaycanın mənafelərinə xidmət göstərən amalların həyata keçirilməsində öz Prezidentinə dəstəyini əsirgəmir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanın parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə razılıqla qarşılayır.*

**Ağalar VƏLİYEV,**
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini***

5th WORLD FORUM ON INTERCULTURAL DIALOGUE BAKU 2-3 MAY 2019

# V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü






Mayın 2-də Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu açılış mərasimindən sonra işini "Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması" mövzusunda beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai 2016-cı il yanvarın 1-də dünya ölkələrinin liderlərinin bir araya gələrək qəbul etdikləri 17 Dayanıqlı İnkişaf Məqsədinin (DİM) əsas vəzifəsinin hazırda bəşəriyyətin inkişafının qarşısında duran mühüm problemlərin həll edilməsi olduğunu deyib. 2018-ci ildə dünya ölkələrinin hərbi büdcəsinin ümumilikdə 1,8 trilyon dollar olduğunu vurğulayan Qulam İshaqzai bildirib ki, bunun müqabilində sosial problemlərin həllinə ayrılan vəsaitin məbləği dəfələrlə azdır. DİM-in əsas hədəflərindən biri də heç kimin geridə qalmamasıdır. Bu məqsəd dünyada yoxsulluğun aradan qaldırılmasına hədəflənib. Dünyada yoxsulluq həddində yaşayan insanların sayı üç milyarddan çoxdur. Yoxsulluğun qarşısını almaq üçün insanlar arasında ayrı-seçkiliyi aradan qaldırmaq, təhsil, səhiyyə və digər sahələrdə əlçatanlığı təmin etməkdir.

Bütün bu məsələlərin əhatəli şəkildə müzakirəsinin əhəmiyyətini qeyd edən Q.İshaqzai bildirib ki, mədəniyyətlərarası dialoqun inkişafına həsr olunan belə bir mötəbər forumda bu mühüm mövzu ilə bağlı fikir mübadiləsinin aparılması xüsusilə əhəmiyyətlidir.

UNESCO-nun baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif belə mühüm forumda iştirakından məmnunluğunu ifadə edərək tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

İnklüziv olmayan cəmiyyətlərin daha zəif olduğunu vurğulayan Nada Al-Naşif bildirib ki, cəmiyyətin bütün zümrələrinin hüquqlarının təmin edilmədiyi ölkələrdə zorakılıq, siyasi, iqtisadi bərabərsizliyin miqyası daha geniş olur. BMT-nin bu problemlərin qarşısını almaq üçün "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ni qəbul etdiyini vurğulayan UNESCO baş direktorunun müavini bildirib ki, biz təkcə sosial, iqtisadi və siyasi bərabərsizliyə qarşı mübarizə aparmamalı, insanların təfəkküründə mühüm dəyişikliklər yaratmağa çalışmalıyıq. Bəşəriyyətin qarşısında duran problemlərin həlli üçün beynəlxalq təsisatların fəaliyyətinin təkmilləşdirilməsinin önəmini vurğulayan Nada Al-Naşif deyib ki, mövcud çağırışlara və təhdidlərə cavab vermək üçün milli ehtiyacları, sosial ədaləti və davamlı inkişafı təmin edə biləcək sistemli fəaliyyətin həyata keçirilməsi vacibdir. BMT bu istiqamətdə öz fəaliyyətini dialoq və əməkdaşlıq vasitəsilə reallaşdırmağa çalışır. UNESCO-nun fəaliyyətində gənclərin ideya və təşəbbüslərinin dəstəklənməsinin, onların təhsil, səhiyyə və s. imkanlara əlçatanlığının təmin olunmasının xüsusi yer tutduğunu vurğulayan qonaq təmsil etdiyi qurumun bu sahədə, eləcə də dünyada elmin və təhsilin inkişafı istiqamətində gördüyü işlərdən danışıb.

Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nə qoşulan ilk ölkələrdən olan Azərbaycan DİM-in hazırlanması işində fəal iştirak edib. DİM-in qəbulundan sonra Azərbaycan hökuməti həmin məqsədlərin implementasiyası istiqamətində mühüm addımlar atır. Azərbaycanın Minilliyin İnkişaf Məqsədlərinin səmərəli icrasında, o cümlədən yoxsulluğun və aclığın aradan qaldırılması sahəsində nailiyyətlərinə görə BMT-nin "Cənub-Cənub" mükafatına layiq görülüb. Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizədək azaldılıb. Bu, bəzi inkişaf etmiş ölkələrlə müqayisədə daha azdır.

Sevinc Həsənova vurğulayıb ki, hazırda Azərbaycan DİM-in milliləşdirilməsi prosesindədir. Azərbaycan DİM-in implementasiyası prosesini təsisatlandırıb və ölkəmizdə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Azərbaycanın DİM-in təmin olunması istiqamətində beynəlxalq və regional əməkdaşlığa böyük önəm verdiyini vurğulayan nazir müavini bildirib ki, ötən ilin oktyabrında BMT-nin rezident əlaqələndiricisinin ofisi ilə regional dayanıqlı inkişaf məqsədləri forumu keçirilib. Həmin tədbirin yekun bəyannaməsində DİM-in regional müstəvidə icrası qaydaları müəyyənləşdirilib. Azərbaycanın təcrübəsi göstərir ki, DİM-in uğurla həyata keçirilməsi üçün bu proses təsisatlanmış şəkildə həyata keçirilməlidir. Ölkəmizdə DİM-in reallaşdırılması üzrə dörd işçi qrup yaradılıb. Bu işçi qruplar vasitəsilə üç sahə - iqtisadi, sosial və ətraf mühit sahələri əlaqələndirilib. Dördüncü qrup isə görülən işlərin monitorinq və qiymətləndirilməsini aparır.

Nazir müavini vurğulayıb ki, Azərbaycan BMT-yə öz milli hesabatını könüllü qaydada təqdim edən azsaylı ölkələrdən biridir. İlk hesabatını 2017-ci ildə təqdim edən Azərbaycan hökuməti yeni hesabatı bu il təqdim etməyi nəzərdə tutur. Şuranın hər il hesabatı dövlət başçısına təqdim etməsi Azərbaycanın DİM-in həyata keçirilməsinə böyük önəm verməsinin göstəricisidir. Hazırda Azərbaycanda 2030-cu ilədək inkişafla bağlı yeni strategiya üzərində iş aparılır. Gələn il isə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası başa çatacaq. Azərbaycanın milli inkişaf strategiyası, bir sıra proqram və konsepsiyalar DİM-in 62 faizini əhatə edir. Qalan 38 faiz isə 2030-cu ilədək nəzərdə tutulan strategiya və planlarda əksini tapacaq.

UNICEF-in uşaq müdafiəsi, Avropa və Mərkəzi Asiya üzrə baş regional məsləhətçisi Aaron Qrinberq çıxışında uşaqların erkən yaş dövründə düzgün tərbiyələndirilməsinin və bu sahəyə sərmayə qoyulmasının önəmindən danışıb. Uşaqların erkən yaşlarında qoyulan sərmayələrin cəmiyyətin gələcək sürətli inkişafında mühüm rol oynadığını vurğulayan Aaron Qrinberq bildirib ki, hazırda 70-dən çox ölkədə bu sahədə ciddi işlər görülür. Bu sərmayələrin iqtisadi əsaslandırılması göstərir ki, yatırılan hər bir 1 dollar 17 dəfə artıq fayda verir. Bu sərmayələr sayəsində uşaqlar və gənclərin ehtiyac duyduqları şəraitə, o cümlədən təhsil, səhiyyə, fərdi inkişaf, simulyasiya və s. imkanlara əlçatanlığı təmin olunur. Bu sərmayələr uzunmüddətli olsa da, cəmiyyətin inkişafı, sosial ədalət, bərabərliyin təmin olunması ilə yanaşı, uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılmasına da mühüm töhfə verir.

Aaron Qrinberq vurğulayıb ki, bir sıra ölkələrdə aparılan tədqiqatların nəticələri uşaqların 50-60 faizinin müxtəlif zorakılıq halları ilə üzləşdiyini göstərir. Uşaqların 25 faizi isə xüsusilə dəhşətli zorakılıq hallarına məruz qalırlar. Ona görə də UNICEF dünyada uşaqlara qarşı zorakılığın qarşısının alınması, onların hüquqlarının təmin olunması istiqamətində genişmiqyaslı fəaliyyət həyata keçirir.

BMT-nin İnkişaf Proqramının İstanbul Regional Mərkəzinin dayanıqlı inkişaf komandasının rəhbəri Corc Bouma çıxışında inklüziv cəmiyyətlərin inkişafını ləngidən əsas problemlərdən birinin gəlir bərabərsizliyi olduğunu vurğulayıb. Dünyada gəlir bərabərsizliyinin get-gedə daha da artdığını qeyd edən C.Bouma bildirib ki, yoxsulluğun aradan qaldırılması üçün insanlara bərabər imkanlar yaradılmalıdır. Çünki bərabərsizlik daha çox iqtisadi artıma mənfi təsir edir.

Dünyada 1,6 milyard insanın maliyyə mənbələrinə çıxış imkanlarından məhrum olduqlarını vurğulayan Corc Bouma deyib ki, inklüziv cəmiyyətlərin inkişafında özəl sektorun sərbəst fəaliyyətinin və inkişafının təmin olunması vacibdir. Bununla yanaşı, cəmiyyətin bütün təbəqələrinin biznes mühitindən yararlanması üçün müvafiq şərait yaradılmalıdır. Bu məsələdə dövlət dəstəyi mühüm rol oynayır. Çünki cəmiyyətdə siyasi və iqtisadi təcrid olunma, maliyyə mənbələrinə çıxış imkanlarının məhdudlaşdırılması özəl sektorun inkişafını ləngidən ən əsas səbəblərdir.

BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter ölkəmizdə ilk dəfə olduğunu vurğulayaraq ecazkar Bakı şəhərində keçirilən mühüm forumda iştirakından məmnunluğunu bildirib, Azərbaycanın DİM-in təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirib.

Manuel Butler Halter turizmin mədəniyyətlərarası dialoqun inkişafına, inklüziv cəmiyyətlərin formalaşmasına mühüm töhfə verdiyini bildirib. Turizmin mədəniyyətlərarası dialoqda katalizator rolunu oynadığını, sülhün carçısı olduğunu deyən Manuel Butler Halter bildirib ki, turizm insanların dünyagörüşünü artırır, onların fərqli düşünmələrinə mühüm töhfə verir, yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Ötən il dünyada 1,8 milyard insanın turist kimi müxtəlif ölkələrə səfərlər etdiklərini vurğulayan icraçı direktor bildirib ki, bu baxımdan turizmin inkişafı mötəbər beynəlxalq forum və konfransların gündəliyinə salınmalıdır. Turizmin inkişafı DİM-in təmin olunmasına mühüm töhfə verir. Çünki dünyada ümumi daxili məhsulun 10 faizi və hər on iş yerindən biri məhz turizm sahəsi ilə bağlıdır. Bu göstərici inkişaf etməkdə olan ölkələrdə daha çoxdur. Ona görə də turizmin inkişafı cəmiyyətin tərəqqisində böyük rol oynayır. Turizmin gender bərabərliyinin təmin olunmasına da mühüm töhfə verdiyini qeyd edən Manuel Butler Halter deyib ki, aparılan tədqiqatlar turizm sahəsində çalışan insanlar arasında qadınların sayının daha çox olduğunu göstərir.

Çıxışlardan sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

## Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq






V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ilk plenar sessiya "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq" mövzusunda olub.

AZƏRTAC xəbər verir ki, sessiya Alfred Dik adına Vətəndaşlıq və Qloballaşma İnstitutunun direktoru və UNESCO-nun Dinlərarası Dialoq və Mədəniyyətlərarası Anlaşma üzrə UNITWIN Şəbəkəsinin təşkilatçısı Fethi Mansurinin moderatorluğu ilə keçib. Fethi Mansuri deyib ki, çoxtərəflilik və mədəniyyətlərarası dialoq mövzusu bir çox alimlərin elmi işlərində mövzu kimi götürülüb. Mədəniyyətlərarası dialoq səmərəli bir yoldur, cəmiyyəti narahat edən çağırışların həlli deməkdir. Məhz mədəniyyətlərarası dialoqla müxtəlifliyi əldə etmək mümkündür. Mədəniyyətlərarası dialoq çoxsəviyyəli olmalıdır.

Plenar sessiyada çıxış edən UNESCO-nun xoşməramlı səfiri İvon Baki deyib ki, zorakı münaqişələr, qeyri-bərabərlik, ayrı-seçkilik qəbuledilməzdir, konsensus vacibdir. Biz fəaliyyətimizi üç aspektə yönəltməliyik: fiziki, əxlaqi və zehni. Fiziki baxımdan yoxsulluq aradan qaldırılmalıdır. Çünki yoxsulluq bərabərsizliyə və ayri-seçkiliyə gətirib çıxarır. Bərabərsizliyin mövcud olduğu cəmiyyətdə zorakılıq çoxalır. Zehni aspektdə bir-biri ilə fiziki teması olmayan cəmiyyətlər arasında əlaqə qurmalıyıq. Fəaliyyətimizin əxlaqi aspektinə gəldikdə isə deyə bilərik ki, hər bir din insanlara öz daxillərində ölməz ruhun yaşadığını öyrədir. Bu ruh insanları həmin prinsipə bağlayır. Təəssüf ki, İslam dini bəzən yanlış olaraq zorakılıq dini kimi qələmə verilir. Lakin həqiqətdə İslam dini sülh, əmin-amanlıq dinidir. Dinlər insanları birgəyaşayışa çağırır. Ona görə də bu gün dinlərin bizə göstərdiyi yolu hamımız ümumi yol kimi qəbul etməliyik.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi səfir Anar Kərimov mövzunun aktuallığını vurğulayıb. Bildirib ki, dünyada qloballaşma dinamik gedir. Bu gün sosial, iqtisadi fonda multikulturalizm böyük əhəmiyyət kəsb edir. Gündən-günə cəmiyyətimiz daha da müxtəlif olur. Məhz müxtəliflik sayəsində biz bir çox ölkələrin təcrübəsi ilə tanış oluruq. Mədəni müxtəliflik innovasiyalara və yaradıcılığa imkan açır. Ayrı-seçkilik isə ksenofobiyaya yol açır. Yeni Zelandiyada və Şri-Lankadakı acınacaqlı hadisələri fərqli ideologiyalara malik insanlar törədib. Bu cür hadisələr insanlar arasında yanlış təəssüratların yaranmasına və zorakılığa gətirib çıxarır.

Anar Kərimov Azərbaycanın tolerantlıq və multikulturalizm modelindən danışıb. Qeyd edib ki, ölkəmizdə multikultural dəyərlər müxtəlif proqramlarla dəstəklənir, inkişaf etdirilir.

Anna Lind Fondunun icraçı direktoru Nabil El-Şərif deyib ki, dünyada müxtəlifliyə etimad azalır. Dörd il əvvəl təsis olunmuş Anna Lind Fondunun qarşısında hədəf var: mədəniyyətlərarası dialoq ideyasını təşviq etmək. Biz, həmçinin hansı davranışların daha münasib olması ilə bağlı tədqiqatlar aparırıq. Araşdırmaların nəticələrinə görə, insanlar birbaşa təmas qurmağa və virtual qaydada mədəniyyətlərarası dialoqlara müsbət yanaşırlar. Müxtəliflik sosial inkişafın mənbəyidir.

Bu forum maraqlı tərəfləri eyni məqsəd ətrafında birləşdirən, həmçinin təcrübə mübadiləsi, müxtəlif təşkilatlar arasında əlaqələrin qurulmasına imkan yaradan uğurlu platformadır.

Kanadanın Ottava Universitetinin dini müxtəliflik və sosial dəyişikliklər sahəsində tədqiqat üzrə rəhbəri Lori Biman deyib ki, müxtəliflik insan həyatını zənginləşdirir. Biz bir-birimizə tolerant yanaşmalıyıq, bir-birimizin oxşar cəhətlərinə baxıb birlikdə yaşamağı öyrənməliyik. Buna yalnız əməkdaşlıqla nail olmaq mümkündür.

Avstraliyanın Müxtəliflik üzrə Şurasının baş icraçı direktoru Liza Annes forumun vacibliyini vurğulayıb və buna görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O deyib ki, burada aparılan müzakirələr müxtəlif ölkələrin cəmiyyətlərinin tərəqqisinə xidmət edir. Vurğulayıb ki, müxtəlifliyə dözümlülük insana uşaqlıqda verilən tərbiyənin bir hissəsi olmalıdır. Bu ideya bir çox ölkələr tərəfindən müsbət qarşılanır.

Sivilizasiyalararası Dialoq Araşdırmaları İnstitutunun baş icraçı direktoru Jan-Kristof Bas bu cür təşəbbüsə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. O, forumun hər dəfə daha uğurlu təşkilinə, coğrafiyasının genişlənməsinə, aktual mövzular ətrafında müzakirələrin aparılmasına şahid olduğunu deyib. Baş icraçı direktor "Bakı Prosesi"nin inklüziv cəmiyyətin qurulması, davamlı inkişafa nail olmaq üçün dinlər, mədəniyyətlər və müxtəlif xalqlar arasında dialoq və əməkdaşlığın təşviqi baxımından əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, müxtəliflik uğurlara yol açan amildir.

Sessiyada mövzu ətrafında geniş müzakirələr aparılıb.

## Qlobal vətəndaşlıq təhsili: Sülh mədəniyyətinin aşılanması





Mayın 2-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyada "Qlobal vətəndaşlıq təhsili: Sülh mədəniyyətinin aşılanması" mövzusu ətrafında geniş müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, jurnalist Çaker Xazalın moderatorluğu ilə keçirilən sessiyada Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva çıxış edərək fərqli mədəniyyətlərə malik insanlarla iş prosesində qazanılan təcrübə proqramından danışıb. Qeyd edib ki, bu gün dünyada müxtəlif pedaqoji kollektivlərdə müxtəlif mədəniyyətləri təmsil edən insanlar çalışır. M.Silva təmsil etdiyi qurumda tarazlı şəkildə təşkil olunan treninqlərdən söz açaraq söyləyib ki, bu treninqlərdə iştirakçılara həm təkbətək, həm də qrup halında öyrənmə prosesi aşılanır: "Bizim düşüncəmiz və prioritetimiz mədəniyyətimizlə bağlıdır ki, bu da bizi fərqləndirir. Biz bu treninqlərlə çox səmərəli nəticələr əldə edirik. Eyni zamanda, bizə qoşulmuş təşkilatlarla rezidensiya kursları da təşkil edirik. Kurslar, əslində spesifik çərçivədə təşkil olunur. Bu kurslar qlobal vətəndaşlar şəbəkəsinin universitetlərində aparılır. On gün davam edən kurslarda gənclər öyrənmə prosesində çox şey əldə edirlər. Bu, həm də gənclərin bir-biri ilə hər hansı təcrübəni bölüşmək baxımından əlverişlidir. Treninqlərimizlə yanaşı, kurslarımızda da müxtəlif mövzular tədris edilir. Qlobal vətəndaşlıq təhsili alan insanlara sülh mədəniyyətinin aşılanması vacib məsələlərdəndir. Bu hal onların sonrakı fəaliyyətlərində xüsusi önəm kəsb edir".

İsveçrənin Mədəniyyətlərarası Təhsil, Təlim və Tədqiqat Cəmiyyətinin (SIETAR) prezidenti xanım Ann-Klod Lambelet rəhbəri olduğu qurumun fəaliyyət istiqamətlərindən danışıb. SIETAR-ın dünyanın 30 ölkəsində nümayəndəliyinin olduğunu qeyd edən A.K.Lamblet qurumun öz sahəsində peşəkar olan insanlarla əməkdaşlıq etməyə üstünlük verdiyini söyləyib. O vurğulayıb ki, SIETAR bu əməkdaşlıq və əlaqələr sayəsində dünyada ən qabaqcıl texnologiya və yeniliklərdən zamanında xəbərdar ola bilir: "Biz konqreslərimiz və seminarlarımızda hər zaman təcrübə mübadiləsi edirik. Biz gənclərin fəaliyyətinə üstünlük veririk. Çalışırıq ki, yaşadığımız mühitə təsir göstərə bilək".

Sonra KAICIID-in Baş katibinin müavini Alvaro Albaset, UNESCO-nun Nyu-Dehlidə yerləşən Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun təhsil vasitəsilə zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssisi Kuani Simon, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, "Sri Lanka Unites" Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne və Pakistan Gənclər Alyansının "Peace Rickshaws" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidinin mövzu ilə bağlı çıxışları dinlənilib.

Panel sessiya işini müzakirələrlə davam etdirib.

5th WORLD FORUM ON INTERCULTURAL DIALOGUE BAKU 2-3 MAY 2019

# V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Dördüncü nazirlər görüşü

V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də dördüncü nazirlər görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa" formatında təşkil olunan tədbir "Dəqiq transformativ fəaliyyət üçün mədəniyyətlərarası dialoqun səfərbər olunması" mövzusuna həsr edilib. Görüşdə dünyada baş verən qarşıdurmalar, zorakılığın aradan qaldırılması, əməkdaşlığın qurulması və digər mühüm mövzularda çıxışlar dinlənilib.



Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə keçirilən tədbirdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tarixi əhəmiyyətindən söz açılıb.

Forumda 100-dən çox ölkə və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirak etdiklərini bildirən Ə.Qarayev vurğulayıb ki, Bakı Forumu beynəlxalq mədəniyyətlərarası dialoqa bir proses kimi baxır. Nazir deyib ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT-nin illik hesabatında əsas platforma kimi qeyd olunub. Ötən müddət ərzində forumun mövzusu xeyli dəyişib və tədbirin mövzusu mövcud dünyanı narahat edən məsələləri əhatə edir: "Biz təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da dialoqların qurulmasına çalışırıq. Biz inanırıq ki, mədəniyyətlərarası müxtəlifliyə öz töhfəmizi verə bilirik. Bizim görüşlər və təcrübələrin bölünməsi böyük təşəbbüslər verə bilər".

Mədəniyyətlərarası dialoqun bir tələb olduğunu vurğulayan nazir forumun sülhə əsaslanan dünyanın qurulması məqsədini güddüyünü bildirib. Foruma dəstək verən bütün təşkilatlara minnətdarlığını bildirən Ə.Qarayev hamını müzakirələrdə iştiraka dəvət edib.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos deyib ki, mədəniyyət hər bir millətin tarixidir. Bu və ya digər cəmiyyətin quruluşunu öyrənmək üçün onun mədəni irsinin elementlərinə diqqət yetirmək lazımdır.

Foruma töhfə vermək üçün birgə əməkdaşlığın önəmini vurğulayan BMT-nin nümayəndəsi burada müzakirə olunan məsələlərin müasir dünyanın qorunması baxımından önəm daşıdığını vurğulayıb.

Forumun Şərqlə Qərb arasında yeni körpülər yaratdığını söyləyən Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirib. Avropa Şurasının dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun gücləndirilməsi, gənclərin maarifləndirilməsi və digər istiqamətlərdə kompleks iş apardığını deyən Qabriella Battaini-Draqoni dünyanın 130-dan çox ölkəsində icra etdikləri "Mədəniyyətlərarası şəhərlər şəbəkəsi" layihəsindən söz açıb. Bildirib ki, hər bir şəhər onlar üçün bir təcrübə laboratoriyasıdır.

Belə bir mötəbər tədbirə dəstək verdiyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirən ISESCO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri deyib ki, artıq beşinci dəfə keçirilən bu forumun coğrafiyası çox genişlənib. "Biz uzun illər əl-ələ verərək forumu dünyanın ən vacib tədbirlərindən birinə çevirdik və siyasi liderləri bu vacib mövzu ətrafında toplaya bildik. Biz qlobal dünyada yaşayırıq, özü də 20 il əvvəlki dünyadan fərqli dünyada", - deyə ISESCO-nun Baş direktoru vurğulayıb.

Baş direktor vurğulayıb ki, dünyadakı bir çox problemlərin həlli yolları var və bu məsələləri humanitar, sülhsevər qüvvələr bir yerdə müzakirə etməlidir. Müharibə, zorakılıq münaqişələrin həlli yolu deyil. Bunu artıq siyasi qüvvələr də başa düşür. Biz sülhməramlı missiyalardan istifadə etməliyik. Yalnız bu yolla münaqişələrin qarşısını ala bilərik. Biz bu istiqamətdə müştərək şəkildə çalışmalıyıq.

Əbdüləziz bin Osman əl-Tuveycri deyib: "Son illər terrorizmi İslamla əlaqələndirmək kimi yersiz fikirlər səslendirilir. Bu, İslama təhqirdir. İslah sülh, bərabərlik, qarşılıqlı hörmət və insanlığa xidmət edən bir dindir. Dünyanın bir çox ölkələrində günahsız insanlar öldürülür, şəhərlər dağıdılır, insanlar məcbur qalaraq yaşadıqları yerləri tərk edir. Əgər biz belə məcburi miqrasiyanın qarşısını almaq istəyiriksə, insanlara yaşadıqları yerlərdə münbit şərait yaratmalıyıq. Biz bir-birimizlə dialoqa girməli və anlaşmaya meyilli olmalıyıq. Əks təqdirdə, dünyamız bu problemlərdən çıxış yolu tapmayacaq. Biz sülh və əmin-amanlıq içində yaşamaq istəyiriksə, birlikdə işləməliyik. Gəlin səbirlə, inamla işimizi davam etdirək və irəli gedək".

Uruqvayın xarici işlər naziri Rodolfo Nin Novoa çıxışında mədəniyyətlərarası dialoqun sülhü irəliyə doğru aparan bir vasitə olduğunu bildirib. O, bu dialoqun müxtəlif ölkələr arasında yaxınlaşmaya xidmət etdiyini vurğulayıb. "Musiqinin, mədəniyyətin dili insanları dialoqa kökləyə bilər. Biz bunun sayəsində güclü əlaqələr qura və dəstəyə nail ola bilərik. Bu, xalqların rifahı üçün lazımdır. Hamımız buna xidmət etməliyik", - deyə nazir bildirib.

Sülhün bərqərar olması üçün bu forumun çox böyük önəm daşıdığını söyləyən Qananın xarici işlər naziri Şirli Botçvey deyib ki, ölkəsi buradakı müzakirələrə töhfə vermək istəyir. Qonaq ölkəsində insanlar, dinlər arasında mövcud olan həmrəylikdən, müxtəlifliyə verilən dəyərlərdən söz açıb: "Bu gün dünya görünməmiş sülh və təhlükəsizlik çağırışları ilə üzləşir. Bu, bizdən həmrəylik tələb edir və insan hüquqlarının qorunması baxımından önəmlidir".

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrindən danışan İranın mədəniyyət və İslam əlaqələri üzrə naziri Abuzər İbrahimi forumun işini yüksək dəyərləndirib. Müasir dünyamızda baş verən yeniliklərdən və kamil insan yetişdirməyin zəruriliyindən söz açan qonaq insanların sülh və barış içində yaşamasının zəruriliyindən danışıb. Bildirib ki, heç vaxt dünyamız indiki qədər ədalətsizlikdən və qanunsuzluqdan əziyyət çəkməyib. Bu səbəbdən də dünyamızın sülhə və sabitliyə böyük ehtiyacı var.

Monteneqronun mədəniyyət naziri Aleksandar Boqdanoviç deyib ki, bu cür dialoq vasitəsilə sülhə, insan təhlükəsizliyinə nail ola bilərik. Ölkəsinin Azərbaycanla geniş əməkdaşlıq qurmaqda maraqlı olduğunu söyləyən nazir bildirib ki, hazırda bu istiqamətdə danışıqlar aparılır.

Türk dünyasının birliyi və təbliği baxımından reallaşdırılan layihələrdən, keçirilən tədbirlərdən söz açan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov deyib ki, Azərbaycanda artıq 5-ci dəfə təşkil olunan bu forum ötən müddət ərzində dünyada sülhün bərqərar olmasına mühüm töhfələr verib. "Prezident İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi TÜRKSOY-un fəaliyyət proqramına yeni bir stimul verib. Təşkilat böyük Azərbaycan şairinin həyat və yaradıcılığının tanıdılması və təbliği məqsədilə təşkil olunacaq tədbirlərə geniş yer ayırıb", - deyə o vurğulayıb.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun qloballaşma prosesində anlaşmaya təkan verdiyini söyləyən Küveytin informasiya və gənclərlə iş naziri Mohammad Naser Abdullahı Aljabri deyib ki, mədəniyyətlərarası dialoq günümüzün zərurətidir. Nazir qeyd edib ki, bütün ölkələrin, etnik qrupların mədəniyyətləri bəşəriyyətin irsidir. Dövlətlər mədəniyyətin inkişafına kömək göstərməlidir.

Qambiyanın xarici işlər naziri Mamadou Tanqara, Əlcəzairin mədəniyyət naziri Meriem Merdaci, Myanmanın təhsil naziri Myo Thein Gyi, Andorranın UNESCO üzrə Milli Komissiyasının baş katibi Joan Miquel Armengol Petit, Qırğızıstanın mədəniyyət, informasiya və turizm naziri Azamat Zhamankulov, İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi, TÜRKPA-nın nümayəndəsi Sadık Şer-Niyaz və başqaları multikulturalizm, tolerantlıq, davamlı inkişaf mövzularında çıxış ediblər.

Mədəni dəyərlərin məhv edilməsi, oğurlanması və mənimsənilməsinin qarşısının alınmasından danışan natiqlər ölkələrinin bu məsələyə xüsusi önəm verdiyini söyləyiblər.

"Biz sülh, birgəyaşayış mədəniyyəti aşılamaqla terrorizmin qarşısını ala bilərik. Bu istiqamətdə birgə çalışmalıyıq", - deyə çıxışlarda vurğulanıb.

Geniş fikir mübadiləsinin aparıldığı görüşə yekun vuran Əbülfəs Qarayev bildirib ki, növbəti gündə də iştirakçıları mühüm mövzuları özündə ehtiva edən məruzələr gözləyir.

## İslamofobiya müsəlman ölkələrinə qarşı yönəlmiş məkrli və düşünülmüş siyasətin təzahürüdür



Mayın 2-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "İslamofobiyanı dayandırın, dinlərarası maariflənmə ilə stereotipləri aradan qaldırın və kompleks müxtəliflikləri idarə edin" mövzusunda sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiya İtaliya İslam Dini Cəmiyyətinin prezidenti Yahya Pallavicininin moderatorluğu ilə keçirilib.

Tədbirdə çıxış edən "Jamiyah Singapore" təşkilatının prezidenti Mohd Hasbi Abu Bakar, Finlandiyanın Milli Təhsil İdarəsinin nümayəndəsi Soad Onniselka, Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov, Albaniyanın Təhsil, İrs və Turizm İnstitutunun direktoru Ramiz Zekaj, Hozes İnstitutunun direktoru Yacine Hilmi və İspaniyanın Azzaqra Mədəniyyət Assosiasiyasının direktoru Antonio Romero dünyada islamofobiyanın fəsadları və ona qarşı mübarizə yollarından danışıblar.



Bildirilib ki, islamofobiya kimi təhlükəli tendensiyanın artması dünyanın bu günü və gələcəyi üçün ciddi narahatlıq doğurur. Təəssüf ki, hazırda dünyada islamofobiya meyilləri artmaqdadır. İslamofobiya anlayışı immiqrantlara və etnik azlıqlara qarşı münasibətdə ksenofobiya və irqçilik mənasında başa düşülməlidir. Beləliklə, islamofobiya ilə mübarizə, həm də bütün səviyyələrdə irqçiliklə mübarizə kimi başa düşüləcək.

Vurğulanıb ki, bu gün dünyada dini ayrı-seçkilik güclənir. Bu isə dini zəmində qarşıdurmalara gətirib çıxarır. İslamofobiya müsəlman ölkələrinə qarşı yönəlmiş məkrli və düşünülmüş siyasətin təzahürüdür. Belə bir şəraitdə İslam həmrəyliyi çox vacib əhəmiyyət kəsb edir.

Tədbir müzakirələrlə davam edib.

## Gənclərin fərqlilikləri arasında körpü yeni vasitələr və metodlar tətbiq etməklə qurulur



V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyalardan biri də "Yeni vasitələr və metodlar tətbiq etməklə gənclərin fərqlilikləri arasında körpünün qurulması: təcrübələrə əsaslanan hekayələr" mövzusuna həsr edilib.



AZƏRTAC xəbər verir ki, sessiyaya moderatorluq edən UNESCO-nun Mədəniyyətlərarası dialoq proqramı üzrə mütəxəssisi Coysi Monteyro qeyd edib ki, bu dialoq olduqca mühümdür. Bu, dünya gəncləri arasında fərqliliyi üzə çıxarır. Gənclər müxtəlif bacarıqları bir-birilərinə aşılayır. İnsanlar müxtəlif şəraitlərdə yaşamağı bacarmalıdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova bildirib ki, rəhbərlik etdiyi qurum gənclər arasında multikultural dəyərlərin təbliği işini həyata keçirir. O əlavə edib ki, təşkilat Avropadakı donorlarla birlikdə layihələr həyata keçirir. Azərbaycandakı tolerantlıqdan danışan təşkilat sədri vurğulayıb ki, ölkəmizdə müsəlman, xristian, yəhudi gənclər birlikdə fəaliyyət göstərirlər. Azərbaycan Ermənistanla münaqişə vəziyyətində olsa da, bu gün Bakıda erməni kilsəsi mövcuddur. Bu, Azərbaycanın fərqli mədəniyyətlərə və dinlərə dəyər verdiyini göstərir.

Anna Lind Fondunun Mədəniyyətlərarası Trendlərin Tədqiqi və Proqramlaşdırılması şöbəsinin rəhbəri Elyanora İnsalako qeyd edib ki, paneldə əsasən gənc xanımların iştirakı təqdirəlayiqdir. O, rəhbərlik etdiyi fondun fəaliyyəti barədə danışıb. Bildirib ki, fond dünyanın müxtəlif yerlərində, xüsusilə də Aralıq dənizi hövzəsi ölkələrində geniş fəaliyyət göstərir. Fond tərəfindən müəyyən əyani vəsaitlər nəşr edilib ki, bu da dialoqun qurulmasına töhfə ola bilər. Hazırda qurum "gənclərin səsi" layihəsi üzərində çalışır. Bu layihənin məqsədi gənclərin liderlik bacarığının artırılması və debat aparmaq imkanlarının inkişaf etdirilməsidir.

Sonra ABŞ-ın Dyuk Universitetinin professoru Darla Duadorfun videoçıxışı yayımlanıb. O, mədəniyyətlərarası dialoqun, gənclər arasında əlaqələrin əhəmiyyətini qeyd edib. Bildirib ki, UNESCO-nun reallaşdırdığı layihələr dünya gəncləri arasında əməkdaşlığı gücləndirir.

Monitorinq və Qiymətləndirmə üzrə QHT-nin nümayəndəsi Maksvel Katakve də UNESCO-nun layihələrinin önəmindən söhbət açıb. Əlavə edib ki, belə layihələrdən faydalanan gənclər bir araya gələrək bir-birilərinin təcrübələrindən istifadə etmək imkanı əldə edirlər.

Kosta-Rika Aborigen Fondunun üzvü Lusyana Batala Bun bildirib ki, UNESCO-nun müvafiq layihəsi sayəsində ölkəsində gənclərin görüşü təşkil edilib. Bu görüşün çox faydalı nəticələri olub.

Frans Jonas Avropa Tədris Mərkəzinin müəllimi Anna Mariya Hase deyib ki, o, Avstriyanın paytaxtı Vyana ətrafında bir məktəbdə çalışır. Məktəbdə fərqli ailələrdən olan uşaqlarla təmasda olduğunu deyən müəllim bu fərqlilikdən bəhs edib.

İnsan Hüquqları üzrə Ərəb İnstitutunun təlimçisi Yasmin Vertani də diqqəti UNESCO-nun gənclər arasında dialoqun qurulmasına imkan verən layihələrinə yönəldib. Qeyd edib ki, gənclərin bir-birinə yaxınlaşması imkanını yaradan bu layihələr, eyni zamanda, onların üzərindəki psixoloji gərginliyin aradan qaldırılmasına imkan verir.

Sessiya müzakirələrlə davam edib.

## Forum çərçivəsində keçirilən növbəti sessiya turizmin inkişaf perspektivlərinə həsr olunub

V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Turizmdə innovativ təşəbbüslərin sosial inteqrasiya və müxtəlifliyi təşviq etməsi" mövzusunda növbəti sessiya keçirilib.



AZƏRTAC xəbər verir ki, sessiyanın moderatoru olan BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter hər zaman aktuallığı ilə seçilən turizm mövzusuna həsr edilən sessiyanın əhəmiyyətini vurğulayıb. O, forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edib.

"New Dawn Associates"in baş direktoru Annonsiata Batamuriza Ruandada 1994-cü ildə baş verən soyqırımından ölkəsinin böyük zərər gördüyünü, turizmin tamamilə məhv olduğunu diqqətə çatdırıb. Bildirib ki, buna baxmayaraq, ölkəsi inkişaf edə və ümumi daxili məhsulun həcmini artıra bilib, turizmin inkişafı istiqamətində bir sıra addımlar atılıb. Ruandada qadınların rolundan, gender bərabərliyindən danışan A.Batamuriza ölkəsində bu gün qadın sahibkarların sayının artdığını və onların bir sıra innovativ layihələrin həyata keçirilməsində yaxından iştirak etdiyini diqqətə çatdırıb. O deyib ki, turizmin inkişafı üçün qanunlar qəbul olunmalı və işlək vəziyyətə gətirilməlidir.

Livan Dağ Yolları Assosiasiyasının icraçı direktoru Martin Btaiçö ölkəsinin turizmi haqqında ətraflı məlumat verib. Qeyd edib ki, ölkəsinin landşaftının təxminən 70 faizini dağlıq ərazi təşkil edir. "Livanda 2006-cı ildə turizmin inkişafı ilə bağlı yeni bir layihəyə başlanıldı. Ölkənin şimalından cənubunadək uzanan 470 kilometrlik yol 76 şəhərdən keçir. Bu yolla hərəkət edərkən fərqli adətləri, mətbəxi, eləcə də tarixi abidələri görürsünüz. Turistləri cəlb etmək üçün biz, həmçinin yerli icmalarla işləyirik", - deyə icraçı direktor qeyd edib.

Qaçqın Ərzaq Festivalının həmtəsisçisi Luis Martin Azərbaycanda ilk dəfə olduğunu qeyd edərək dünyada baş verən iğtişaşlar zamanı öz yurdlarından didərgin düşmüş insanların milli mətbəx nümunələrindən söhbət açıb. Bildirib ki, 2016-cı ildən dünyanın bir sıra ölkələrində sosial layihə olan Qaçqın Ərzaq Festivalı təşkil ediblər. Burada məqsəd müxtəlif xalqların milli mətbəx nümunələri ilə tanış olmaq və bu təamların insanları necə birləşdirə bilməsi ilə bağlı suala cavab tapmaqdır.

Dövlət Turizm Agentliyinin Turizm siyasəti və strategiya departamentinin rəhbəri Məhəmməd Muradov ölkəmizdə turizmin inkişafı ilə bağlı görülən işlərdən, həyata keçirilən layihələrdən danışıb. Vurğulayıb ki, son illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. Bunun nəticəsində ötən il Azərbaycana dünyanın müxtəlif ölkələrindən 2,8 milyondan çox turist gəlib. Daha sonra ölkəmizin turistik məkanları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Diqqətə çatdırıb ki, Azərbaycanda turizmin inkişafı üçün mükəmməl imkanlar mövcuddur və bu gün həmin imkanlardan kifayət qədər istifadə edilir. Əldə edilən nəticələr, ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması da onu göstərir ki, bu istiqamətdə dövlət və özəl sektorun apardığı birgə siyasət öz səmərəsini verir.

# *Prezident İlham Əliyev:* "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır"

Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 83-cü kitabında yer alan bu fikirlər dövlət başçısının 2017-ci il noyabrın 14-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin oktyabr-noyabr aylarını əhatə edir.




Kitaba Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Soçi şəhərində keçirilən iclasında, İstanbulda D-8 IX Zirvə görüşündə, Azərbaycan, İran və Rusiya liderlərinin Tehranda keçirilən Zirvə görüşündə çıxışlarının və prezidentlərin mətbuata bəyanatlarla çıxışlarının, Belçikaya işgüzar səfəri zamanı "Şərq tərəfdaşlığı" sammitinin plenar iclasında "Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir" mövzusunda çıxışının mətnləri daxil edilib.

Nəşrdə dövlət başçısının Azərbaycana səfərə gəlmiş Bolqarıstan Prezidenti ilə görüşü barədə informasiya, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü, iki ölkə arasında sənədlərin imzalanma mərasimi barədə məlumatlar, dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarının mətnləri yer alıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Çoxcildliyin 83-cü kitabında Prezident İlham Əliyevin Polşa, Ukrayna, İran, Monteneqro, İtaliya, Braziliya, Qazaxıstan və digər dövlətlərin, Avropa İttifaqı, ATƏT, Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası və NATO-nun ölkəmizə səfər etmiş yüksək vəzifəli şəxslərini, MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçirilən 78-ci iclasının iştirakçılarını qəbul etməsinə dair materiallar toplanıb.

Oxucular bu nəşrdə dövlətimizin başçısının Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Azərbaycanda 2 milyardıncı ton neftin hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə söylədiyi nitqlərin, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində çıxışının, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə bağlı "Euronews" telekanalının Azərbaycan və Türkiyə prezidentləri və Gürcüstanın Baş naziri ilə müsahibəsinin mətnləri ilə tanış ola bilərlər.

Kitaba həmçinin Prezident İlham Əliyevin şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyəti ilə görüşündə çıxışının mətni, Bakı Metropoliteninin 50 illik yubileyinə həsr olunmuş mərasimin, Uşaqların IV Ümumrespublika Forumunun iştirakçılarına müraciətlərinin mətnləri, ayrı-ayrı ölkələrin dövlət başçılarına məktubları daxil olunub.

Dövlət başçısının Gəncə şəhərinə, Abşeron, Tərtər və Ağcabədi rayonlarına səfərləri, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da bu kitabda tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 83-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib

Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlət başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.



İclasda paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda yoxlamalar aparan Fövqəladə Hallar Nazirliyinin arayışı dinlənilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların kommunal problemlərlə üzləşməməsi üçün hazırda aidiyyəti qurumların komitə ilə birgə xüsusi komissiyanın tərkibində işlədiyini bildirib. Sədr komissiyanın artıq bir neçə binaya baxış keçirdiyini və mövcud vəziyyətlə bağlı rəy hazırladığını deyib.

Bu məsələnin dövlətimizin başçısının nəzarətində olduğunu vurğulayan Baş nazirin müavini komissiyaya qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyəti, həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# Azərbaycanın xarici işlər naziri İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşüb

Xarici işlər naziri Elmar Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Baş katibi Hadi Süleymanpur ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakını məmnunluqla qeyd edən Hadi Süleymanpur forumun önəmli mövzuya həsr edildiyini bildirib, tədbiri yüksək səviyyədə təşkil etdiyi üçün Azərbaycan tərəfini təbrik edib.

Baş katib ECO çərçivəsində həyata keçirilən islahatlar və gələcək layihələr barədə Azərbaycan tərəfini məlumatlandırıb.

Öz növbəsində, nazir Elmar Məmmədyarov ECO məkanında həyata keçirilən regional iqtisadi layihələrin tərəfimizdən dəstəkləndiyini bildirib. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional layihələrdən danışan nazir ECO-ya üzv dövlətlərin bu layihələrdən faydalanması imkanlarından bəhs edib.

Tərəflər İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ticarət, informasiya və kommunikasiya texnologiyaları, nəqliyyat, logistika, bağlılıq və digər sahələrdə əməkdaşlığın inkişafı imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə edilib.

# Azərbaycanın və Monteneqronun Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Mayın 2-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Monteneqronun daxili işlər naziri Mevludin Nuhodjiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Daxili İşlər Nazirliyi mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ramil Usubov hər iki dövlət başçılarının, habelə yüksək səviyyəli nümayəndə heyətlərinin, eləcə də vətəndaşlarımızın qarşılıqlı səfər və ziyarətlərinin Azərbaycan ilə Monteneqro arasındakı sıx əməkdaşlığın və qarşılıqlı etimadın daha da genişləndirilməsinə təkan verdiyini məmnunluqla qeyd edib.



Sonra nazir DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, insan hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə həmkarına məlumat verib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Monteneqronun daxili işlər naziri Mevludin Nuhodjiç dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə inkişaf etməsindən, Azərbaycanda yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, paytaxt Bakının dünyanın ən təhlükəsiz dövlətlərindən və şəhərlərindən biri olmasından, burada həyata keçirilən geniş quruculuq işlərindən məmnunluğunu ifadə edib. Qonaq yaxın dost və tərəfdaş saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəklərini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Azərbaycan-Qana münasibətlərinin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb

Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qananın xarici işlər və regional inteqrasiya naziri xanım Şirley Ayorkor Boçvey ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizdə yenidən olmasından məmnunluğunu bildirən qanalı nazir forumun yüksək səviyyədə təşkilini xüsusilə qeyd edib.

Nazirlər iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparıblar. İnsanlararası təmasların daha da artırılması məqsədilə qanalı tələbələrin Azərbaycanda təhsil imkanları müzakirə olunub.

Görüşdə Azərbaycanın Afrika İttifaqı ilə əməkdaşlığı məsələləri də nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər mövzular müzakirə edilib.

# Azərbaycan-İƏT əlaqələri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Osaymin ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İƏT-in Baş katibi V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakını məmnunluqla qeyd edib. Forumun dünyada sülh, təhlükəsizlik və rifahın təmin olunmasına töhfə baxımından önəmli platforma olduğunu bildirib.

Nazir Elmar Məmmədyarov forumun rəsmi açılışında Baş katibin çıxışına istinad edərək, mədəniyyətlərarası dialoq, müasir dünyanın üzləşdiyi hədə və təhdidlər, o cümlədən islamofobiya kimi məsələlərin cavablandırılmasına dair İƏT-in yanaşması ilə bölüşdüyü üçün Baş katibə təşəkkür edib.

Tərəflər İƏT-Azərbaycan əlaqələri və əməkdaşlığın daha da inkişaf etdirilməsi imkanları ətrafında geniş fikir mübadiləsi aparıblar. Həmçinin qarşıdan gələn İƏT Zirvə görüşünə hazırlıq məsələləri müzakirə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Bakı Prosesi" mədəniyyətlərarası dialoq sahəsində təcrübəni bölüşmək üçün əvəzsiz platformadır

Mənim üçün yenidən Azərbaycana gəlmək böyük şərəfdir. Azərbaycan dinamik, inkişaf edən gənc bir dövlətdir. Mən həm Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə, həm də "Bakı Prosesi"nə görə Azərbaycan hökumətinə təşəkkür edirəm. Son illərdə Azərbaycan bütün dünyada mədəniyyətlərarası dialoqun inkişafına və təbliğ olunmasına xüsusi töhfə verib. Belə ki, Azərbaycan bir çox irimiqyaslı beynəlxalq mədəniyyət tədbirlərinin təşkilatçısı və tərəfdaşı kimi çıxış edir. Bu isə ölkənin həm mədəni, həm də iqtisadi baxımdan inkişafına təkan verir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, Avropa Şurası baş katibinin müavini xanım Qabriela Battaini-Draqoni bildirib.

"Mədəniyyətlərarası dialoq sahəsində təcrübələri bölüşmək üçün bu forum və "Bakı Prosesi" əvəzedilməz platformadır. Dünyada mövcud olan hazırkı vəziyyətdə mədəniyyətlərarası dialoq çox mühüm və vacib bir amildir. 2008-ci ildə Avropa Şurasının "Ağ kağızlar" adlı hesabatını "Bir yerdə, ləyaqət içində yaşamaq" başlığı altında dərc etdik. Demokratiya, bərabərlik və qanunun aliliyi prinsipi Avropa Şurası üçün vacibdir, biz bu yolla inkişaf edirik. 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 İslam ölkəsi dəvət edildi. Bununla da mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olundu. Konfrans çərçivəsində Avropa Şurasına və İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında mədəniyyətlərarası dialoqa dair birgə bəyannamə qəbul olundu. Avropa Şurasına üzv dövlətlər bu prinsipləri qəbul ediblər. Biz bu prinsiplər əsasında sülhə nail ola bilərik.

Bizim Şimal-Cənub Mərkəzimiz qlobal vətəndaşlıq konsepsiyası üzərində işləyir. Avropa İnsan Hüquqları Məhkəməsinin qətnamələrində, Avropa Şurası qurumlarının qərarlarında tolerantlıq təşviq olunur. Mədəniyyətlərarası dialoq heç vaxt bitməyən bir çağırışdır. Biz bu forumun prinsiplərini fəaliyyətə çevirməliyik. Bu, bizdən birgəyaşayışa dair narahatlıqları aradan qaldırmağa və dövlət strukturlarını yenidən qurmağı tələb edir. Mədəniyyətlərarası dialoqda azlıqların hüquqlarının qorunması çox vacibdir. Tərəqqi siyasi iradə əsasında təmin oluna bilər. Çağdaş Avropada ifrat millətçiliyin və populizmin inkişafını görürük. Buna görə bir çox problemlər yaranır. "Bakı Prosesi" məhz bu məsələlərə həsr olunub. Qələbə qazanmaq üçün bu, çox vacibdir", - deyə Qabriela Battaini-Draqoni qeyd edib.

# Azərbaycanla Uruqvay iqtisadi, ticarət və texniki əməkdaşlığa dair saziş imzalayıb

Azərbaycan və Uruqvay arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoa ilə görüşüb. Görüşdə Azərbaycan və Uruqvay arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Ş.Mustafayev qeyd edib ki, ölkələrimiz arasında ticarət əlaqələri inkişaf edir, Azərbaycan 2018-ci ildə Uruqvaya ən çox neft ixrac edən 5 ölkədən biri olub. Bununla belə, iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar var. Azərbaycan və Uruqvay nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili iqtisadi əməkdaşlığın və biznes strukturları arasında əlaqələrin möhkəmləndirilməsində faydalı ola bilər. Nazir iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün möhkəm müqavilə-hüquq bazasının yaradılmasının önəmini qeyd edib, Azərbaycan və Uruqvay arasında əməkdaşlığın inkişafı üçün potensialı diqqətə çatdırıb. Qeyd olunub ki, Uruqvay şirkətləri Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən faydalana bilərlər.

Uruqvay Şərq Respublikasının xarici işlər naziri ölkəmizdə həyata keçirilən islahatlardan və əldə olunan nailiyyətlərdən məmnunluğunu ifadə edərək Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə aparılan müzakirələrin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağını vurğulayıb. Rodolfo Nin Novoa mövcud potensialdan istifadənin, iş adamları arasında görüşlərin təşkil edilməsinin iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsində əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti və bu forumun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyi vurğulanıb.

Həmçinin görüş çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Uruqvay Şərq Respublikası Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" saziş imzalanıb. Sənəddə ölkələrimiz arasında iqtisadi, ticarət və texniki əməkdaşlığın genişləndirilməsi məqsədilə birgə komissiyanın yaradılması, kiçik və orta şirkətlər arasında əməkdaşlığın, hər iki ölkədə keçirilən beynəlxalq sərgi və yarmarkalarda iştirakın təşviqi, investisiya sahəsində təcrübə mübadiləsinin təşkili və sair məsələlər nəzərdə tutulur.

# İslahatların yeni mərhələsi başlayır

## İlham Əliyev qarşıdakı hədəfləri və iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını bəyan etdi

***Əvvəli 1-ci səh.***

- *Ümumi daxili məhsul 3 faiz artıb;*
- *Valyuta ehtiyatları 46,7 milyard dollara qalxıb;*
- *Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub;*
- *Büdcə daxilolmaları 200 milyon manatdan çox artıb;*
- *Büdcə xərcləri 25 milyard 200 milyon manata qədər artıb;*
- *Sənaye istehsalı 4,4 faiz çoxalıb;*
- *Qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artıb;*
- *İnflyasiya aşağı səviyyədədir - 2,1 faiz;*
- *Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz çoxalıb;*
- *Qeyri-neft sektoruna 2 milyard dollar sərmayə yatırılıb;*
- *Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz artıb;,*
- *Sosial müavinətlər orta hesabla 2 dəfə çoxalıb;,*
- *Məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb;*
- *İki böyük zavod - karbamid və yüksək sıxlıqlı polietilen zavodları açılıb;*
- *Qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb;*
- *Bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib;*
- *35 min insan ödənişli ictimai işlərlə təmin edilib;*
- *602 min 347 nəfərə problemli kreditlərin ödənişlərinə başlanılıb;*
- *Regionların sosial-iqtisadi inkişafına dair İV dövlət proqramı qəbul edilib və s.*

Görülən işlər onu deməyə əsas verir ki, həyata keçirilən bütün islahatlar uğurlu nəticələr verir. Dövlət başçısı isə bəyan etdi ki, iqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bütün bunlar isə xalqın rifah halının yaxşılaşdırılmasına və dövlətin qüdrətinin daha da güclənməsinə xidmət edir.

Ancaq Prezident hesab edir ki, daha böyük uğurlar, yəni hər bir sahədə irəli getmək üçün Azərbaycanda da yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma tətbiq edilməlidir. Əlbəttə ki, bütün bunların tətbiqi Azərbaycana hər sahədə böyük dividentlər qazandıracaq və Prezidentin dediyi kimi bundan sonrakı mərhələdə də Azərbaycan vətəndaşının rifa halının daha da yaxşılaşdırılmasının ən ön planda olduğuna şahidlik edəcəyik.

Bütün bunlarla yanaşı Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsini təmin etməklə yanaşı ölkəmizin bölgədə təhlükəsiz məkan kimi tanınmasını şərtləndirib.

Qarşıda duran hədəflərə gəlincə isə Prezident ilk növbədə regionların sosial-iqtisadi inkişafı ilə bağlı icra edilməyən layihələrin dördüncü dövlət proqramı çərçivəsində həll ediləcəyini vurğuladı. Bəlli oldu ki, strateji yol xəritələrində nəzərdə tutulan bütün layihələrin uğurla icrasından sonra 2021-2025-ci illəri əhatə edən yeni proqram işlənib hazırlanacaq: "Dördüncü dövlət proqramı çərçivəsində bu gün hələ də görə bilmədiyimiz bütün layihələri icra edəcəyik. Bu, möhkəm bir zəmindir. Biz bu zəmin üzərində yeni iqtisadi inkişaf modeli qurmalıyıq və qururuq. Bizdə həm təcrübə, həm də iradə var Beləliklə, biz indiki yol xəritələrinin icrasını uğurla başa vurmalıyıq və 2021-2025-ci illəri əhatə edən yeni proqramı işləyib təqdim etməliyik".

Prezident bu il reallaşacaq layihələr barədə də ətraflı məlumat verərək aidiyyatı qurumlara ciddi tapşırıqlar verdi. Beləliklə, bu il ölkədə aşağıdakı layihələrin gerçəkləşdirilməsi planlaşdırılır:

- *Minimum 1000 kilometr avtomobil yolu çəkilməlidir;*
- *Şəhid ailələrinə dövlət tərəfindən ən azı 800 mənzil veriləcək;*
- *Təqribən 6 mindən çox məcburi köçkün ailəsi üçün mənzillər tikiləcək;*
- *Qarabağ müharibəsi əlillərinə ən azı 600 minik avtomobili veriləcək;*
- *10-a yaxın yeni mərkəzi rayon xəstəxanası fəaliyyətə başlayacaq;*
- *İki olimpiya idman mərkəzi istifadəyə veriləcək;*
- *6 milyon insan dövlət hesabına tibbi müayinədən keçəcək;*
- *Bakıya 300 ən müasir avtobus gətiriləcək;*
- *Zəlzələ bölgəsində (Şamaxı, Ağsu, İsmayıllı) minlərlə yeni ev tikiləcək;*
- *Sakibkarlara 170 milyon manat həcmində kredit veriləcək;*
- *5 şəhərdə içməli su layihəsi başa çatdırılacaq;*
- *Sahibkarlar bu il təqribən 8 min ödənişli ictimai iş yeri yaradacaqlar;*
- *Bölgələrdə 5, Bakıda 2 "ASAN xidmət" mərkəzləri açılacaq və s.*

Göründüyü kimi ilin sonunadək mühüm sosial-iqtisadi layihələrin reallaşdırılması nəzərdə tutulur. Bütün bunlar əlbəttə ki, dövlətin ölkə vətəndaşlarına göstərdiyi diqqətin bariz təcəssümüdür. Ancaq islahatların daha geniş vüsət alması və davamlı uğurlara nail olunması üçün dövlət başçısının söylədiyi kimi daim inkişaf və axtarış olmalıdır. Elə buna görə də dövlət başçısı əldə edilən uğurlarla, nailiyyətlərlə kifayətlənməməyi məsləhət görür: "Daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq".

Prezidentin söylədiyi kimi qarşıda yeni hədəflər var. İnkişafın dayanıqlı və uzunmüddətli olması üçün inamla çalışmalı və gələcəyə nikbinliklə baxılmalıdır və bu prosesə təkcə hökumətin və dövlət qurumlarının deyil, bütün cəmiyyətin dəstək göstərməsi vacib şərtlərdəndir.

***Rəşad BAXŞƏLİYEV.***
***"Azərbaycan"***

# İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub

Ümummilli lider Heydər Əliyev deyib: "Bədən tərbiyəsi və idmanla geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur".

Ulu öndərin tövsiyələri əsas tutularaq Naxçıvan Muxtar Respublikasında idman sağlam gənc nəslin yetişməsində əsas amil kimi götürülür. Müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən işlərin davamı olaraq, İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov olimpiya idman kompleksində görülən işlərlə tanış olub.





Məlumat verilib ki, kompleksdə bütün zəruri infrastruktur yenilənib, tavan və döşəmələr dəyişdirilib, işıqlandırma, havalandırma və istilik sistemləri yenidən qurulub. Hər biri 220 tamaşaçı tutumu olan iki idman zalında mini-futbol, basketbol, voleybol, güləş, karate, boks, ağır atletika və digər idman növləri üzrə yarış və məşqlərin keçirilməsi üçün lazımi şərait yaradılıb. Yarış nəticələrinin göstərilməsi üçün elektron məlumat lövhəsi qurulub. Kompleksdə idman ləvazimatlarının satış bölməsi və bufet istifadəyə verilib, iş, soyunub-geyinmə və digər xidməti otaqlarda lazımi şərait yaradılıb.

Ali Məclisin Sədri kompleksin imkanlarından səmərəli istifadə olunması və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar verib.

# Azərbaycanın pauerliftinq idman növü üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüş olub

Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev mayın 2-də ölkəmizin pauerliftinq idman növü üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MOK-da keçirilən görüşdə Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov, birinci vitse-prezident Natiq Qasımov, baş katib Kamal Məmmədov, pauerliftinq komandasının baş məşqçisi İlqar İbişov, komandanın kapitanı Elşən Hüseynov, komandanın üzvləri Pərvin Məmmədov, Şamo Aslanov və Nurlan Babacanov iştirak ediblər.





Tədbiri açan A.Əliyev pauerliftinq üzrə Paralimpiya yığmasının Macarıstanın Eger şəhərində keçirilən dünya kubokundakı uğurlu çıxışını yüksək qiymətləndirib. O, üç qızıl və bir bürünc medalla komandamızın kişilər arasında birinci yer tutmasını xatırladıb.

Pauerliftinqin olduqca ağır idman növü olduğunu qeyd edən MOK-un rəsmisi bildirib ki, bu idman növündə əzmli məşqlər önəmlidir.

Komandamıza uğurlar arzulayan A.Əliyev bildirib ki, əsas hədəf gələn il Tokioda keçiriləcək Yay Paralimpiya Oyunlarıdır.

Daha sonra AMPK-nın prezidenti İlqar Rəhimov paralimpiyaçılara göstərdiyi dəstəyə görə A.Əliyevə minnətdarlığını bildirib. Onun sözlərinə görə, bu, artıq pauerliftinqçilər ilə ikinci görüşdür. "Bundan əvvəl A.Əliyev AMPK-da pauerliftinq üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüşüb. Bu görüş idmançılarımız üçün böyük stimul oldu. Onlar həmişə sizin dəstəyinizi öz üzərilərində hiss edirlər. Fürsətdən istifadə edərək AMPK adından paralimpiyaçılarımızın dostu Prezident İlham Əliyevə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımızı bildiririk", - deyə İ.Rəhimov vurğulayıb.



İlqar Rəhimov qeyd edib ki, idmançılarımızın Macarıstanda keçirilən dünya kubokunda uğurlu çıxışı tarixi hadisədir. O vurğulayıb ki, ilk dəfədir böyük komanda ilə belə mötəbər beynəlxalq yarışda çıxış edən komandamızın üç üzvü qızıl, bir üzvü isə bürünc medalla qayıdır.

Daha sonra İ.Rəhimov mayın 13-14-də paytaxtımızda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-pri yarışının medallarının suvenirini Azər Əliyevə təqdim edib.

Pauerliftinq üzrə Paralimpiya milli komandasının baş məşqçisi İlqar İbişov və komandanın kapitanı Elşən Hüseynov da göstərdiyi dəstəyə görə A.Əliyevə minnətdarlıq ediblər. Bu dəstəyin idmançılarımızı yeni qələbələrə ruhlandırdığı bildirilib.

# Naxçıvan özünü dünya arenasında şahmat məkanı kimi tanıdıb

Mayın 1-də Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalı start götürüb.

AZƏRTAC-ın Naxçıvan bürosunun əməkdaşları Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovun, həmçinin festivalda iştirak edən zəka sahiblərinin bu mötəbər yarışla bağlı fikirlərini öyrəniblər.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov deyib: "Builki şahmat festivalı digərlərindən çox fərqlənir. Əvvəlcə onu deyim ki, başqa ölkələrdən gələn iştirakçılar Naxçıvanın necə qonaqpərvər bir diyar olduğunu görürlər. Nəticədə digər şahmatçıların da bu festivala marağı ilbəil artır. Yüksək reytinqli şahmatçıların Naxçıvana gəlməsi, yarışda iştirak etməsi turnirin səviyyəsini ildən-ilə artırır. Etiraf edək ki, festival ilk dəfə təşkil olunarkən xeyli çətinliklər yaranmışdı, şahmatçıları bura dəvət etmək heç də asan olmamışdı. Çünki Naxçıvanı tanımırdılar və turnirin necə keçəcəyini bilmirdilər. İndi isə bütün şahmatçıların özləri bizə şahmat festivalında mübarizə aparmaq üçün müraciət edirlər. Biz bu festival barədə məlumat yaydıqdan dərhal sonra müraciətlər başlayır. Artıq deyə bilərəm ki, Naxçıvan özünü dünya arenasında şahmat məkanı kimi tanıdıb və FIDE-də ən reytinqli festivallardan biridir. Hazırda keçirilən festivalı digərlərindən fərqləndirən başqa cəhət əhatə dairəsinin genişlənməsidir. Belə ki, ilk dəfədir bu festivalda Amerika Birləşmiş Ştatlarından şahmatçı da iştirak edir. Bildiyiniz kimi, ABŞ çempionatı çox güclüdür və orada ilk 10 pilləni tutan şahmatçılar beynəlxalq turnirlərdə, yarışlarda çıxış edirlər. Həmin şahmatçı da onlardan biridir".

Qrossmeyster Urfan Sevdimalıyev qeyd edib ki, artıq 9-cu dəfədir, Beynəlxalq Şahmat Festivalında iştirak edir və bunların dördündə mükafatçılar sırasına düşüb: "Belə bir festivalın muxtar respublikada təşkil olunması möhtəşəm hadisədir. Biz şahmatçılar reytinqli turnirlərdə mübarizə apardıqca oyun təcrübəmiz artır. Belə bir mötəbər turnirin təşkilatçılarına minnətdarlığımı bildirirəm".

Beynəlxalq usta Toğrul Həsənzadə fikirlərini bölüşərək deyib: "Bu festivalın başlamasını hər bir şahmatçı kimi, mən də səbirsizliklə gözləyirdim. Çünki Naxçıvanda təşkil olunan turnir şahmatçılarımızda bayram əhvali-ruhiyyəsi yaradır. Burada iştirak etməklə təcrübəmizi artırırıq. Həm də digər ölkələrin şahmatçıları ilə dostluq münasibətləri qururuq. Belə bir festivalın keçirilməsi Naxçıvanda şahmata və şahmatçılara göstərilən diqqət və qayğının bariz nümunəsidir".

FIDE ustası Pərviz Qasımov deyib ki, bu mötəbər festivalda kiçik yaşlarından iştirak edir: "Uzun illərdir ənənə halını alan bu turnir bir daha göstərir ki, Naxçıvanda şahmatın inkişafı üçün hər bir imkan yaradılıb. Builki festivalda uğur qazanıb muxtar respublikanın şahmat ənənələrini layiqincə davam etdirəcəyimə inanıram".

"FIDE-nin reytinqində ən yaxşı festivallardan hesab olunan turnirdə iştirak etmək qürurvericidir. Festivalda "A" qrupunda mübarizə aparıram və burada dünyanın bir çox tanınmış şahmatçıları ilə qarşılaşacağam" deyən FIDE ustası Sadiq Məmmədov vurğulayıb ki, mükafatçılar sırasına düşmək üçün bütün qüvvəsini sərf edəcək. O, belə mötəbər festivalın keçirilməsinə görə təşkilatçılara minnətdarlığını bildirib.

# Heydər Əliyev Fondu Ağdamda konsert proqramı təşkil edib

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günü və Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə mayın 2-də Ağdamda konsert keçirilib.

AZƏRTAC xəbər verir ki, konsertdə xalq mahnıları, muğam ifaları və rəqslər təqdim edilib. Tanınmış müğənnilərlə yanaşı, gənc ifaçılar da tamaşaçılar qarşısında çıxış ediblər.



Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin doğum günü və Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə mayın 3-də Şəkidə, mayın 4-də Gəncədə, mayın 5-də Xaçmazda, mayın 6-da Şamaxıda, mayın 7-də isə Lənkəranda və Naxçıvanda konsertlər təşkil olunacaq. Konsertlərdə muğam, folklor, aşıq, estrada və pop musiqi nümunələri, müxtəlif rəqslər təqdim ediləcək.

# IV Buktreyler Festivalının qala gecəsi keçirilib

Kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafı məqsədlərini daşıyan IV Buktreyler Festivalının qala gecəsi keçirilib. Hər zaman yenilikçi təşəbbüsləri dəstəkləyən "Azercell" şirkəti festivalın əsas tərəfdaşı qismində çıxış edib. Festivalın təşkilati dəstəkçiləri Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, təsisçisi və direktoru isə kinoaktyor Ruslan Sabirlidir. Qeyd edək ki, qalib buktreylerlər tanınmış incəsənət xadimlərinin daxil olduğu münsiflər heyəti tərəfindən dəyərləndirilmə əsasında seçilib.



Tədbirdə çıxış edən "Azercell Telekom" MMC-nin Korporativ ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya rəqəmsallaşan dünyada kitabın ömrünün uzadılması, intellektual mədəniyyətin təbliği, mütaliənin, kitaba sevginin aşılanması kimi mühüm məqamların şirkət üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb, bu tip təşəbbüslərin dəstəklənməsinin zəruri olduğunu bildirib.

Qeyd edək ki, Elxan Elatlının "On dördüncü adam" romanına Sadiq Fərzəlibəylinin çəkdiyi buktreyler "Azercell" şirkəti tərəfindən "Ən Yaxşı Mobil Buktreyler" nominasiyası üzrə qalib seçilib və 1.000 AZN ilə mükafatlandırılıb.

Vurğulamaq istərdik ki, "Azercell" mütaliə mədəniyyətinin inkişafına, ədəbi irsimizin təbliğinə öz töhfəsini vermək üçün 2015-ci ildə Bookmate xidmətini abunəçilərin istifadəsinə təqdim edib. 850000-dən artıq kitabı özündə cəmləyən bu zəngin kitabxana mütaliəsevərlər arasında böyük rəğbətlə qarşılanıb.

***"Azərbaycan"***

# Nazir Əbülfəs Qarayev İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri ilə görüşüb

Mayın 1-də mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qonaqları səmimi salamlayan nazir Ə.Qarayev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın əsrlər boyu malik olduğu mədəni, tarixi bağlantılara söykəndiyini bildirib. Qeyd edib ki, bu gün iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq əlaqələri inkişaf edir.

Sədr Abuzər İbrahimi Türkaman, öz növbəsində, bu gün dövlətlərimiz və xalqlarımız səviyyəsində, ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrin yaradılmasından məmnunluğunu ifadə edib. Həmçinin İranda Azərbaycan Mədəniyyəti Günlərinin ən yüksək səviyyədə keçirilməsi üçün İran tərəfinin bütün səylərini əsirgəmədiyini deyən Abuzər İbrahimi Türkaman Azərbaycan tərəfinin ölkəmizdə İran Kinosu Günləri və İran İslam Respublikasının Mədəniyyət Günlərinin təşkil olunması üçün hər cür şərait yaratmasını yüksək qiymətləndirib.

İran İslam Respublikasının Azərbaycandakı səfiri Cavad Cahangirzadə və İranın ölkəmizdəki Mədəniyyət Mərkəzinin direktoru Əsgər Farsinin də iştirak etdiyi görüşdə gələcək illərdə birgə kino həftələri, mədəniyyət günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Nazir Ə.Qarayev bu kimi tədbirlərin keçirilməsinin iki ölkə arasında əməkdaşlığın bundan sonrakı inkişafına müsbət təsir göstərəcəyini, mədəni əlaqələrin daha da sıx inkişafına təkan verəcəyini bildirib. İrandakı tədbirlər çərçivəsində görüşlərini xatırladan nazir bu əməkdaşlığın ikitərəfli əlaqələrin daha da inkişafına vəsilə olacağını qeyd edib. İran kino mütəxəssisləri ilə birgə layihələrdən, İranda təşkil edilən Fəcr festivalında Azərbaycan teatrının uğurlu iştirakından söz açan Əbülfəs Qarayev mədəniyyətin digər sahələrində birgə əməkdaşlığın perspektivlərini də diqqətə çatdırıb.

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında İran İslam Respublikasının hər zaman yaxından iştirakını vurğulayan nazir nümayəndə heyətini cari il sentyabrın 27-də Bakıda keçiriləcək beynəlxalq kitab sərgi-yarmarkasında iştiraka dəvət edib.

İran nümayəndə heyətinin rəhbəri Abuzər İbrahimi Türkaman bu kimi görüşlərin qarşılıqlı əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verdiyini vurğulayıb və səmimi qəbula görə nazirə təşəkkürünü ifadə edib.

Qeyd edək ki, Abuzər İbrahimi Türkamanın rəhbərlik etdiyi nümayəndə heyəti V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdədir.

# Vətəndaşlara diqqət və qayğının daha bir göstəricisi

Prezident İlham Əliyevin tapşırığına əsasən, əhalinin aztəminatlı hissəsinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq məqsədilə güzəştli qiymətlə təbii qazın illik istehlak limitinin 1700 kubmetrdən 2200 kubmetrədək artırılması ölkə vətəndaşlarına göstərilən qayğının daha bir göstəricisidir. Bu, aztəminatlı ailələrin büdcələrinə qənaət etməyə imkan verəcək.

Ölkə rəhbərinin bu qayğısı Gəncədə yüksək qiymətləndirilmişdir. Bunu bir neçə şəhər sakini ilə söhbətimiz də təsdiqlədi.

**Solmaz BAĞIROVA:**

- Mən uzun illər orta məktəbdə müəllim işləmişəm. 10 ildən artıqdır ki, təqaüddəyəm. Bu illər ərzində dövlət başçısının sərəncamlarına əsasən təqaüdüm bir neçə dəfə artırılıb. Hazırda 400 manatdan çox təqaüd alıram. Dolanışığımız pis deyil. Oğlum Elşən işləyir. Gəlirimiz beş nəfərlik ailəmizin dolanışığını təmin edir. Qış mövsümündə qazla bağlı müəyyənləşdirilmiş limiti keçən kimi ikiqat ödəniş edirdik. Nəticədə ailə büdcəmizin bir hissəsi mavi yanacağın işlədilməsinə sərf olunurdu. Sağ olsun, Prezident. Əhali qrupu üzrə qazın illik istehlak limitini 500 kubmetr artırdı.

**Şöhrət USUBOV:**

- Nə gizlədim, limiti keçməmək və əlavə vəsait xərcləməmək üçün yollar axtarırdıq. Bəzən evdə odun sobasını işlədirdik. Ancaq nə yandırırdıqsa, onların heç biri mavi yanacağın yerini vermirdi. Ölkə rəhbərinə minnətdarıq ki, bizi bu qayğıdan qurtardı.

**Vüqar CƏFƏROV:**

- Ötən əsrin 80-ci illərinin axırları, 1990-cı ilin əvvəllərində əhalisi çətinliklə dolanan respublikamızın adı indi dünyada ən sürətlə inkişf edən ölkələr sırasında çəkilir. İqtisadiyyatımız yüksəldikcə əhalinin güzəranı da yaxşılaşır. Həyata keçirilən islahatlar, yeni müəssisələrin açılması işsizliyi aradan qaldırmaqla yanaşı, əhalinin həyat tərzini də yüksəldir. Söz yox ki, bu yüksəliş davam edəcək. Buna Prezident İlhm Əliyev təminat verir. İndi hər bir Azərbaycan vətəndaşı bu təminatı öz üzərində hiss edir. Hər il təqaüd və əməkhaqlarının artırılması, aztəminatlı ailələrə göstərilən qayğı, məcburi köçkünlərin problemlərinin həlli, şəhid ailələrinə, müharibə veteranlarına, müharibə əlillərinə göstərilən diqqət dövlətin sosial paketinin məntiqi nəticəsidir. Bu günlərdə ölkə rəhbərinin tapşırığına əsasən, əhalinin aztəminatlı hissəsinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq məqsədilə təbii qazın illik istehlak limitinin artırılması faktı da sübut etdi ki, Prezident daim xalqı düşünür və əhalinin problemlərinin həllini fəaliyyətinin əsası hesab edir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**Split və salon tipli kondisionerlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**150 (bir yüz əlli) manat iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **13 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **24 iyun 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **25 iyun 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

# Azərbaycan dünyada fermerlərə ən çox dəstək verən nümunəvi ölkədir

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən dövr ərzində ölkənin sosial-iqtisadi və siyasi həyatında baş verən hadisələri təhlil etmiş, qarşıdakı illərdə görülən işlərin istiqamətlərini müəyyənləşdirmiş, aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar vermişdir.

Dövlət başçısı vurğulamışdır ki, son 15 il ərzində dünyada iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb. Bunu iqtisadi sahədə aparılan uğurlu islahatlarla əlaqələndirən Prezident ölkənin neftdən asılılığına son qoymaq üçün qeyri-neft sektorunun inkişafı sahəsindəki uğurları yüksək qiymətləndirmişdir. Məlumdur ki, qeyri-neft sektorunun inkişafı ölkədə ümumi məhsul istehsalının artımına və bu növ məhsulların ixracına əlavə imkan yaradır. Bu da öz növbəsində valyuta axınının qarşısını almaqla yanaşı, ölkəyə əlavə valyutanın gətirilməsini təmin edir. Beləliklə, ölkənin maliyyə dayanıqlılığı artır, xaricdən gələn mənfi təsirlərin qarşısı alınır.

Prezident İlham Əliyev, həmçinin aqrar sektorda həyata keçirilən islahatları, fermerlərə verilən dövlət dəstəyinin müsbət nəticələrini qeyd edərək kənd təsərrüfatında məhsul istehsalının bəzi sahələrdə faizlə deyil, dəfələrlə artdığını, ixracatda aqrar məhsulların çəkisinin yüksəldiyini vurğulamışdır.

Dövlət başçısı iclasda aqrar sektorda aparılan islahatlar, bu sahəyə verilən dövlət dəstəyini və onun nəticələrini yüksək qiymətləndirərək demişdir: "Kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar haqqında məruzə edildi. Bu sahə də daim diqqət mərkəzindədir. Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərti ilə. Yəni bu sahəyə maksimum dəstək verilir. Bu sahədə aparılan islahatlar əminəm ki, daha böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, indiki 3,6 faiz artım bizim potensialımızı tam əks etdirmir. Çünki bu qədər işlər görülür - həm meliorativ tədbirlər, həm də dövlət tərəfindən dəstək. Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahələrində görülən işlər indi burada məruzədə səsləndi. Yəni bizim istehsalımız və ixracımız böyük dərəcədə artır. Mən hesab edirəm ki, görülmüş işləri və islahatları nəzərə alsaq, kənd təsərrüfatında artım daha da yüksək ola bilər".

İclasda kənd təsərrüfatının texnoloji sahəyə çevrilməsi təşəbbüsü də irəli sürüldü. Bu, aqrar sektorda yeni texnika və texnologiyalardan istifadə edilməsi, mükəmməl sığorta sisteminin yaradılması, kəndlərdə investisiya layihələrinin icrası deməkdir. Kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı aidiyyəti qurumlara layihələrin hazırlanması barədə göstəriş verən dövlət başçısı qeyd etdi ki, hər bir kənd üzrə belə bir proqramın olması zəruridir.

Tədbirdə açıqlanan statistik rəqəmlər də aqrar sektorda məhsul istehsalının sürətlə artdığını göstərir: ötən il kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi 2017-ci illə müqayisədə 4,6 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 6,8 faiz artıb. Heyvandarlıq məhsullarının istehsalında artım 2,7 faiz olub. Tərəvəzçilik və meyvəçilikdə də yüksək nailiyyətlər əldə edilib. Belə ki, ötən il ölkə üzrə 1,5 milyon tondan çox tərəvəz, 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal olunub ki, bu da müstəqillik dövründə qazanılan ən yüksək nəticədir. Məhsul istehsalının artımı ixraca da müsbət təsir göstərir. Bunun nəticəsidir ki, hesabat dövründə meyvə-tərəvəz məhsullarının ixracı 11,1 faiz artaraq dəyəri 530 milyon dollara çatıb.

Cari ilin birinci rübü də aqrar sektor üçün uğurlu olub. Bir qədər əvvəl kənd təsərrüfatı məhsullarında müşahidə edilən qiymət artımı aşağı enir. Səbəb bazara faraş məhsulların çıxarılması və bu hesaba əhalinin tələbatının ödənilməsidir. Yəni bazarda tələb və təklifdə balans yaranıb. İlin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsalın həcmi 3,6, o cümlədən bitkiçilik üzrə 24,7, heyvandarlıq üzrə 2,8 faiz artıb. Bu dövrdə tərəvəz istehsalı 32, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz yüksəlib. İlin əvvəlindən aqrar sektorda qazanılan uğurlar qarşıda daha yüksək nəticələr əldə ediləcəyinə təminat verir.

Dünya təcrübəsi göstərir ki, aqrar sektorda məhsul istehsalının artımı daha çox torpaq sahəsinin istifadəsindən deyil, müasir texnika və texnologiyalardan, məhsuldar toxum və damazlıqdan asılıdır. Bunun üçün Azərbaycanda da fermerlərin dövlət dəstəyinə ehtiyacı var və həmin ehtiyac da ödənilir. Təkcə ötən il "Aqrolizinq" tərəfindən 6046 müasir texnika, o cümlədən 108 pambıqyığan və 250 taxılyığan kombayn alınıb. Fermerlərin müasir texnikalardan istifadəsini asanlaşdırmaq üçün cari ildən onlar texnikanı 40 faiz güzəştlə 5 il faizsiz kredit tətbiq edilmədən istədikləri şirkətdən birbaşa ala biləcəklər. Bu da fermerlərə bahalı və daha çox mənfəət gətirən texnikaya sahib olma imkanı yaradır.

Heyvandarlıqda da məhsuldarlığa say çoxluğu ilə deyil, daha keyfiyyətli cinslərdən istifadə etməklə nail olmaq üçün tədbirlər görülür. Belə ki, ölkəmizdə heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və xaricdən yüksək genetik potensiala malik heyvanların gətirilməsi davam edir. Həmçinin yerlərdə daha məhsuldar cinslərin yetişdirilməsi və fermerlərə damazlıq heyvanların satılması təşkil olunur ki, bu da damazlıq heyvanların maya dəyərini aşağı salır və fermerlər üçün sərfəlidir. Ötən il belə təsərrüfatlarda süni mayalanma yolu ilə alınmış buzovların sayı əvvəlki illə müqayisədə 48 faiz artıb. Bu sahədə tətbiq olunan yenilikdən sonra fermerlər həmin buzovları 60 faiz güzəştlə və 3 il fasiləsiz kredit tətbiq edilməklə istədikləri şirkətdən ala bilirlər.

Aqrar sektorda taxıl və pambıq istehsalının da yüksək məhsuldarlıq hesabına artırılması əsas hədəflərdəndir. Bununla yanaşı, yeni meyvə bağlarının salınması, o cümlədən fındıq sahələrinin 84 min hektara çatdırılması, badam və qoz bağları sahələrinin genişləndirilməsi də perspektivdə olan sahələrdir. Eyni zamanda, zeytunçuluq, çayçılıq, çəltikçilik, sitrusçuluq, üzümçülük sahələrinin inkişafının dəstəklənməsi dövlətin əsas prioritetlərindəndir.

Məhsul istehsalının artırılması onun satış bazarının təmin edilməsi ilə paralel şəkildə həyata keçirilməlidir. Çünki fermer əkdiyi məhsulu gəlir gətirəcək qiymətə sata bilməsə, növbəti ildə həmin məhsulu əkməyəcək. Bu səbəbdən dövlət fermerlərə istehsal etdikləri məhsulları satmaq üçün dəstək verir. Belə ki, fermerlərin yerli və xarici bazarlara çıxış imkanlarının artırılması üçün Aqrar Tədarük və Təchizat Şirkəti təsis edilib. Onun da əsas vəzifəsi "Kənddən şəhərə" satış platforması yaradıb məhsul satışını reallaşdırmaqdır. Bu, həm də bəzilərinin məhsulu yerlərdə ucuz qiymətə alaraq şəhərdə həddən çox baha qiymətə satmaq istəyinin qarşısını alır. Məqsəd bu yolla istehsalçı ilə alıcı arasında birbaşa əlaqə yaratmaqdır.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

## Replika





# Yıxılan ağaca balta vuran... tapılmır

Yəqin sizə qəribə gəldi - necə ola bilər ki, yıxılan ağaca balta vuran tapılmasın. Axı, adətən bizdə bu iş üçün bəzən növbə də düzülür. Amma bu dəfə məsələ fərqlidir və həmin fərq ondan ibarətdir ki, söhbət nə işdən çıxarılmış keçmiş vəzifə sahibindən gedir, nə də təxminən həmin qəbildən olan bir başqasından. Söhbət məlum məsəldə məcazi mənada işlədilən ağacın birbaşa özündən gedir.

Fotomüxbirimiz A.Məmmədov bu şəkilləri paytaxtın Həsən bəy Zərdabi prospektindəki həyətlərin birində çəkib. Gördüyünüz kimi, qurumuş (və ya qurumamış, bu halda fərqi yoxdur) ağacları aşmaqdan... qaz boruları qoruyur. Amma heç kim, hətta "Azəriqaz" İB və Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarının nümayəndələri də söz verə bilməzlər ki, qaz boruları təyinatlarından kənar bu "vəzifə"lərinin öhdəsindən sonadək gələ biləcək. Bəlkə də "səmərələşdirici təklif" kimi bu "üsul" başqa regionlarda "istifadə" oluna bilərdi. Amma ilin az qala 300 günü küləkli keçən Bakıda əyilən ağaca qaz borusu ilə "dayaq vermək" çox ciddi təhlükə törədə biləcək qədər məsuliyyətsizlikdir! Bəli, yanğını nəzərdə tuturuq, o yanğını ki, Allah etməmiş baş versə, nəinki bir neçə qurumuş qara ağac, hətta hektarlarla yaşıl meşə onun insan həyatı daxil fəsadları qarşısında da heç nədir.

Biz yarımsəhra ərazi hesab olunan Abşeronda, o cümlədən Bakıda ağac yetişdirməyin, yaşıllıq salmağın hansı zəhmət, qulluq hesabına ərsəyə gəldiyini və bu üzdən onların qorunmasının vacibliyini bilirik. Eyni zamanda onu da bilirik ki, həmin zəhməti çəkən, qulluğu göstərən insandır və onun həyatı, təhlükəsizliyi heç də hansısa qurumuş ağacdan, yaxud qudurmuş küçə köpəyindən az vacib deyil!

Elə isə nəyə görə həmişə də olmasa, əksər vaxt bədbəxt hadisələrin arxasına düşürük? Gərək nə isə baş versin ki, sonra tədbir görülsün?! Doğrudanmı, paytaxtın Yaşıllaşdırma Təsərrüfatı Birliyi üçün real təhlükəni aradan qaldırmaq, yəni yıxılan ağaca balta vurmaq elə çətin işdir?! İnanmırıq! Çünki həmin "balta sahibləri"nin iaşə və digər obyektlərin tikintisi zamanı sap-sağlam ağaclara qənim kəsildiklərinin dəfələrlə şahidi olmuşuq!

Amma belə bir qorxulu mənzərənin yaranmasında günahkar təkcə onlar deyil. Çünki Bakının heç də ucqar, gözdən uzaq olmayan məhəlləsində bu cür vəziyyəti görməyib, əvəzində ev-ev, mənzil-mənzil gəzib qaz xətlərini az qala mikroskopla yoxlayan "Azəriqaz" işçilərinin abonentləri "ilişdirməyə" bəhanə tapmaq üçün dəridən-qabıqdan çıxdıqlarının da şahidi az olmamışıq. Həyət evlərinin sayğaclarını küçəyə quraşdırıb, sonra da onun zədələnməsinin səbəbini abonentlərin boynuna qoyaraq ağlagəlməz cərimələr yazan, sayğaclar dəyişdirilərkən isə ortaya çıxan (daha doğrusu, çıxarılan) keçmiş borclar qaz təsərrüfatı işçilərinin hətta ən yüksək səviyyədə irad tutulan əməlləri deyilmi?!

"Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır..." Bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin cari ilin birinci rübü üzrə sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində səsləndirmişdir və şəkillərdən də göründüyü kimi, dövlət başçısının bu tənqidinin arxasında "Azəriqaz" İB-in fəaliyyətindəki ciddi nöqsanlar durur.

O nöqsanları aradan qaldırmaq üçün isə maraq olmalıdır, təbii ki, şəxsi yox, ictimai maraq. Belə bir maraq və sözsüz ki, həm də vəzifə borcuna məsuliyyətli yanaşma olsaydı, nə Həsən bəy Zərdabi prospektindəki binaların sakinləri təhlükəli ağacların əlində əsir-yesir qalar, nə də gecələr küçələrimizə sahibsiz köpəklər sahiblik edərdi! Baxmayaraq ki, onların hər ikisindən insan həyatının daha qiymətli olduğunu sübut etməyə ehtiyac yoxdur!

**Raqif MƏMMƏDLİ,**
**"Azərbaycan"**

## 3 may Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür

# Mətbuat azadlığı demokratik inkişafın mühüm göstəricilərindəndir

Bu gün Ümumdünya Mətbuat Azadlığı Günüdür. Azad sözün şərəfinə elan olunmuş ümumdünya mətbuat azadlığı günü "soyuq müharibə" dövrünün başa çatması ilə yer kürəsinin vahid informasiya məkanına çevrilməsinin məntiqi nəticəsi kimi ortaya çıxıb.

1991-ci il may ayının 3-də Namibiyanın paytaxtı Vindhukda keçirilən seminarda iştirak edən jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə dövlətləri mətbuat azadlığının və demokratiyanın təmin edilməsinə yardımçı olmağa çağıran "Vindhuk Bəyannaməsi"ni qəbul ediblər. Bəyannamə UNESCO tərəfindən də dəstəklənib və Ümumdünya Mətbuat Azadlığı Gününün qeyd edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına təklif göndərib. 1993-cü il dekabrın 20-də isə BMT Baş Məclisinin qərarı ilə mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü elan edilib.

Azərbaycan dövləti demokratiyanın vacib elementlərindən olan söz və mətbuat azadlığına daim böyük önəm verir. Ölkəmizdə bu sahədə böyük uğurlara aparan dəyişikliklərin əsası 1993-cü ildə qoyulub. Həmin il ulu öndər Heydər Əliyevin xalqın istək və tələbi ilə siyasi hakimiyyətə gəlişindən sonra bütün sahələrdə həyata keçirilən islahatlar mətbuatdan da yan ötmədi. Demokratik dövlət quruculuğuna başlayan Heydər Əliyevin tarixi xidmətləri nəticəsində ölkədə kütləvi informasiya vasitələrinin fəaliyyətində inkişafa doğru əsaslı dönüş yarandı, mətbuat və söz azadlığının, fikir plüralizminin əsası qoyuldu. Siyasi həmlələrdən, senzuradan əziyyət çəkən söz azadlığı bütün təzyiqlərdən azad oldu, azad sözün inkişafı məqsədilə KİV-in sərbəst istehsalı və yayımı təmin edildi, həmçinin mətbuatın dövlət tənzimlənməsindən imtina olundu. Demokratik cəmiyyətin əsas meyarlarından hesab olunan azad sözün və fikir azadlığının təmin edilməsini 1995-ci ildə qəbul edilən Konstitusiya da hüquqi baxımdan təsdiqlədi. Demokratik dövlət quruculuğunda azad sözün rolunu həmişə yüksək qiymətləndirmiş ümumilli lider Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı ilə ölkəmizdə senzuranın birdəfəlik ləğv edilməsi KİV-in sərbəst fəaliyyəti, inkişafı və azad sözün təmin edilməsi ilə bağlı milli mətbuatımızın tarixinə qızıl hərflərlə yazılan addım idi. Bu fərmanla ulu öndər Heydər Əliyev KİV-də əvvəlki hakimiyyətlərin dövründə tətbiq olunmuş senzuranı ləğv etdi.

Senzuranın ləğvi və digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq normaları və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etdi ki, bu da demokratik cəmiyyət quruculuğu yolunu seçən Azərbaycanın perspektiv hədəflərinə uyğun idi.

Heydər Əliyevin KİV-in inkişafı sahəsində atdığı addımların nəticəsi kimi mətbuatın maddi-texniki və maliyyə bazasını möhkəmləndirmək üçün mühüm qərarlar qəbul edildi, güzəştlər tətbiq olundu. Qəzet kağızına əlavə dəyər vergisi ləğv edildi, KİV-in iqtisadi müstəqilliyinə təminat məqsədilə bir sıra qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verildi. Bundan başqa, ayrı-ayrı qəzetlərin dövlət orqanlarına olan borcları donduruldu, məhkəmələr tərəfindən cərimələnmiş qəzetlər təzminat ödəməkdən azad edildilər.

Söz və mətbuat azadlığına, demokratiyanın göstəricisi olan müstəqil mətbuatın fəaliyyətinə əvvəlki iqtidarların yaratdığı əngəlləri aradan qaldıran Heydər Əliyev KİV-lə əlaqədar yaranmış problemlərə daim çevik münasibət bildirmiş, hər bir məsələnin məhz mətbuat orqanlarının maraqlarına uyğun həllinin tərəfdarı olmuşdur. Ulu öndər həm də dövlət-mətbuat münasibətlərində bu gün də davam edən ənənələrin əsasını qoydu. Belə ənənələrdən biri dövlət başçısının mətbuat nümayəndələri ilə görüşüdür. Bütün bunların nəticəsi olaraq Azərbaycan mətbuatı 2001-ci ildə Heydər Əliyevi "Jurnalistlərin dostu" mükafatına layiq gördü.

Ötən 16 ildə Azərbaycanda cəmiyyət həyatının bütün sahələri böyük inkişaf yolu keçib. Ölkəmiz demokratik inkişaf baxımından mühüm uğurlara imza atıb. Təbii ki, bu uğurlar mətbuatda da özünü göstərib. Azad sözə böyük önəm verən, bu sahədə ulu öndərin qoyduğu ənənələri davam etdirən Prezident İlham Əliyev mütəmadi olaraq mətbuat nümayəndələri ilə görüşür, onları dinləyir, KİV-in ölkənin həyatındakı rolu ilə bağlı tövsiyələr verir.

Prezident İlham Əliyev mətbuata qayğısını da əsirgəmir. Milli mətbuatın yaranmasının yubileyləri dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə qələm sahiblərinə fəxri adlar, orden və medallar verilir. Habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi, jurnalistlər üçün dövlət hesabına yaşayış binalarının tikilməsi də mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, jurnalistlər üçün dövlət hesabına yeni mənzillərin inşası dünya miqyasında analoqu olmayan bir addımdır. Bunu yüksək qiymətləndirən mətbuat Prezident İlham Əliyevi iki dəfə "Jurnalistlərin dostu" elan edib.

Azərbaycan dövləti mətbuat azadlığının təmin olunması üçün üzərinə düşən bütün vəzifələri yerinə yetirir. İnternet mediasının inkişafı və sosial şəbəkələrin genişlənməsi isə qlobal şəbəkənin insanlara verdiyi yeni imkanlardır. Bu mənada demokratik inkişaf yolunu seçən ölkəmizdə söz azadlığına heç bir halda məhdudiyyət yoxdur. O cümlədən internet azaddır və ondan hansısa formada istifadəyə heç bir qadağa mümkün deyil. Lakin Azərbaycanın uğurlarını gözü götürməyən antiazərbaycançı dairələr mətbuatla bağlı məsələlərdə də ölkəmizə qara yaxmağa çalışırlar. Təbii ki, həmin dairələr Azərbaycanda televiziyaların, radioların, o cümlədən internet televiziyalarının, informasiya agentliklərinin, xəbər saytlarının sayının ildən-ilə kəskin artdığını yaxşı bilirlər. Azad sözə yaradılmış imkanların nəticəsidir ki, Azərbaycan müasir dünyanın informasiya məkanında mətbuatı, informasiya vasitələri ilə getdikcə daha fəal və geniş şəkildə təmsil olunur. Eyni zamanda bir çox tanınmış xarici KİV-in Azərbaycan nümayəndəliyi fəaliyyət göstərir. Ən əsası dünyanın çox az sayda ölkəsində mətbu orqanının təsis edilməsi ilə bağlı ölkəmizdəki kimi liberal qaydalara rast gəlmək olar. Hətta demokratik ənənələri ilə öyünən cəmiyyətlərdə belə bu qaydalara təsadüf etmək çətindir.

Bu mənada antiazərbaycançı dairələr nə qədər cəhd göstərsələr də, bütün planları iflasa məhkumdur. Çünki bu gün ölkəmizdə bütün sahələrdə həyata keçirilən uğurlu siyasətlə yanaşı, milli təəssübkeşlikdən çıxış edən, dövlətçiliyə və xalqa xidməti rəhbər tutan Azərbaycan mətbuatı onların qarşısında sarsılmaz sipərdir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# İlham Əliyev Ermənistana növbəti xəbərdarlığını etdi

## Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeləri daha da güclənir

Bütün mühüm parametrlərdə, o cümlədən hərbi müstəvidə Ermənistan üzərində böyük üstünlüyə malik Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həllində maraqlı olduğunu ardıcıl bəyan edir. Bu, eyni zamanda Azərbaycanın indiyədək işğalçı ölkəyə etdiyi ən böyük güzəşt sayılır. Amma ölkəmiz Ermənistanın işğal siyasətini uzatmasını da qətiyyən qəbul etmək niyyətində olmadığını ən yüksək səviyyədə beynəlxalq ictimaiyyətin, o cümlədən münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin diqqətinə çatdırıb.

### "Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq"

Azərbaycan tərəfinin tələb olunacağı təqdirdə güc yolu ilə ərazilərini işğaldan azad etmək iqtidarında olmasını isə dünya ictimaiyyəti, o cümlədən işğalçı Ermənistan da yaxşı bilir. Real vəziyyətin təhlili onu göstərir ki, Ermənistanın mövcud hakimiyyətinin təcavüzkar Qarabağ siyasətini davam etdirməsi fonunda Azərbaycanın məsələni ordusu vasitəsilə çözməsi qaçılmaz olacaq.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair məsələdə ölkəmizin mövqeyində heç bir dəyişiklik yoxdur: *"Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək".*

Göründüyü kimi, bütün bunlara görə məsuliyyət birbaşa Ermənistanın və onun rəhbərliyinin üzərinə düşür.

### Koçaryan və Ohanyanın cinayət işləri məhkəməyə göndərilib

Ermənistanda Serj Sarkisyan iqtidarının devrilməsi nəticəsində Nikol Paşinyanın hakimiyyətə gəlməyindən bir il ötsə də, ölkədə iqtisadi, siyasi müstəvidə hansısa real dəyişiklik müşahidə edilmir. Yerli media yazır ki, Ermənistan çıxılmaz vəziyyətdədir və hansısa xilas yolu görünmür.

O da xüsusi olaraq vurğulanır ki, yeni iqtidarın keçmiş hakimiyyət təmsilçilərinə qarşı başladığı kampaniya bu ölkənin daxili ictimai-siyasi həyatı ilə yanaşı, beynəlxalq münasibətlərinə də mənfi təsir göstərməkdədir. Amma buna rəğmən ölkədə repressiya dalğasının genişlənməkdə olduğu müşahidə edilir.

İndi o da məlum olur ki, 2008-ci ilin mart hadisələri ilə əlaqədar ölkədə konstitusiya quruluşunun devrilməsi üzrə açılan cinayət işi çərçivəsində sabiq prezident Robert Koçaryan, keçmiş müdafiə naziri Seyran Ohanyan, baş nazirin keçmiş müavini Armen Gevorqyan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sabiq baş katibu Yuri Xaçaturovun cinayət işləri məhkəməyə göndərilib. Bu barədə Ermənistan Baş prokurorunun müşaviri Qor Abramyan özünün "Facebook" səhifəsində yazıb.

### 6 ilədək azadlıqdan məhrumetmə cəzası

Separatçı rejimin liderlərindən sayılan sabiq müdafiə naziri Seyran Ohanyan 1 mart 2008-ci ildə dinc nümayiş iştirakçılarının güllələnməsinin təşkilində ittiham edilir. Ohanyan nümayişdəki insanların güllələnməsi zamanı Ermənistan Müdafiə Nazirliyi Baş Qərargahının rəisi vəzifəsini tutub.

Xatırladaq ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Sergey Ohanyan Qarabağın dinc mülki əhalisinə qarşı hərbi-cəza əməliyyatlarında bilavasitə iştirak edib və Ohanyan separatçı "DQR" ordusunun komandanı vəzifəsini tutub. Amma proseslər göstərir ki, artıq separatçı rejimin üzvü olan bu şəxs də əməllərinə görə cavab verməli olacaq.

Ermənistanın sabiq baş nazirinin müavini Armen Gevorqyanla bağlı Ermənistan Xüsusi İstintaq Xidmətinin rəisi Sasun Xaçatryan maraqlı məqamlar açıqlayıb: "Wikileaks" saytının materiallarına əsasən, Konstitusiya Məhkəməsinin hakimi Valeriy Poqosyana təzyiq edilib. O, Serj Sarkisyanın xeyrinə qərar çıxarması üçün Ermənistanın ikinci prezidenti Robert Koçaryan administrasiyasının nümayəndəsi tərəfindən ona təzyiq olunduğu barədə şikayət edib.

"Wikileaks"in dərc etdiyi həmin məlumat öz təsdiqini tapıb. Armen Gevorqyan və daha bir məmur Konstitusiya Məhkəməsinin hakimi Valeriy Poqosyana təzyiq etməyə cəhd göstəriblər. Ona qarşı cinayət məcəlləsinin 332-ci maddəsinin 3-cü bəndi - ədalət mühakiməsinə maneçilik üzrə ittiham irəli sürülüb. Bu cinayətə görə 6 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Qabaqlayıcı tədbir kimi, ölkəni tərk etməməsilə bağlı Gevorqyanın üzərinə öhdəlik qoyulub".

Xatırladaq ki, Armen Gevorqyan 2007-ci ilin iyunundan 2008-ci ilin aprelinədək Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi olub. Bütün bunlar qarşıdakı günlərdə Ermənistanı yeni daxili problemlərin gözlədiyini deməyə əsas verir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**




# Bakıda keçirilmiş "Formula-1" yarışları Almaniya KİV-də geniş işıqlandırılıb

Almaniyanın "Speed-week" idman jurnalının internet səhifəsində "Formula-1" Azərbaycan Qran-prisi haqqında informasiya yerləşdirilib. İnformasiyada pilotlar və Bakı Şəhər Halqası haqqında ətraflı məlumat verilir.



Bundan başqa, "Augsburger-Allgemeine", "WELT", "Motorsport", "Speed magazine", "Abendzeitung München", "Stuttgarter Zeitung", "Morgenpost", "Badische Neueste Nachrichten", "Motorsport Magazine", "Motorsport Total", "Die Rheinpfalz", "RP-Online", "RAN", "Autobild", "Sportschau", "Auto Motor und Sport" kimi qəzet və jurnallarda da eyni məzmunlu informasiyalar dərc edilib.

# "Formula-1" SOCAR Azərbaycan Qran-prisini izləmək üçün Bakıda 74 ölkədən azarkeşlər olub

Bakıda keçirilmiş "Formula-1" SOCAR Azərbaycan Qran-prisi çərçivəsində yarış sessiyalarını yerində canlı izləməyə, həmçinin həftəsonunda "Baku Crystal Hall"da dünya ulduzlarının iştirakı ilə keçirilən axşam konsertlərinə ümumilikdə 85 min tamaşaçı gəlib.



"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətindən (BŞH) verilən məlumata görə, bu il ötənilki qədər bilet satılıb. Xaricdən alınan biletlərin nisbəti 22 faiz təşkil edib.

Çox sayda xarici azarkeşin rəğbət göstərdiyi yarışda qələbəni "Mercedes" komandasının pilotu Valtteri Bottas qazanıb. Onu komanda yoldaşı Luis Hamilton və "Ferrari"nin sürücüsü Sebastyan Fettel sonadək izləyiblər. Bottasın zəfər sevinci ötən il yarışın sonuncu dövrələrində qələbəyə gedərkən yaşadığı uğursuz qəzanın verdiyi kədəri tamamilə unutdurub. Onun qələbəsi tribunalarda əyləşən minlərlə azarkeş tərəfindən böyük coşqu ilə qarşılanıb.

Yarışı izləməyə 74 ölkədən azarkeş gəlib. Bu ölkələr arasında Rusiya, Böyük Britaniya, Avstriya, Niderland və Gürcüstan xüsusilə fərqləniblər.

BŞH-nin kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim yarışı izləməyə gələnlərin statistik göstəriciləri ilə bağlı bildirib: "Son 4 il ərzində Azərbaycanda "Formula-1" yarış həftəsonunun möhtəşəm şəkildə keçirilməsində böyük irəliləyiş əldə etmişik. Avropadan gələn azarkeşlərin sayının artması və Formula-1" izləyicilərinin Bakını seçməsi bizi xüsusilə sevindirir. Buna misal olaraq, yarışı izləmək üçün ölkəyə səfər edənlərin sayında 41 faiz artımla Böyük Britaniya, 28 faizlə Avstriyanı və 26 faizlə Niderlandı göstərə bilərik. Bundan başqa, Çin və Türkiyədən gələnlərin sayında da müvafiq olaraq 22 və 11 faiz artım qeydə alınıb. Tribuna biletlərinin hamısı satılıb və cümə günü axşam konsertinin olmamasına, həmçinin Sem Smitin şənbə günü keçirilməsi nəzərdə tutulan çıxışının son anda ləğv olunmasına baxmayaraq, ümumilikdə bilet satışı 2018-ci ildəkinə bərabər olub. Xüsusən gənclər arasında yarışa maraq ilbəil artır və nəticədə yerli azarkeşlərin sıraları daha da genişlənir. Bu, bizi yüksək səviyyədə həvəsləndirir. Düşünürəm ki, hazırda tutduğumuz mövqe olduqca güclüdür və 2020-ci ildə də azarkeşlər üçün daha bir möhtəşəm "Formula-1" yarış həftəsonu keçirmək üçün əlimizdən gələni edəcəyik".

Builki Qran-pri son iki yarış qədər dramatik anlara səhnə olmasa da, "Formula-1" azarkeşləri həyəcan dolu anlarla yadda qalan sıralanma turundan və "Formula-2" yarışlarından böyük zövq alıblar.

"Formula-1" SOCAR Azərbaycan Qran-prisi tamaşaçıların zövqünə uyğun təklif etdiyi zəngin məzmunlu müxtəlif əyləncə proqramı ilə də avtoidmansevərlərin könüllərini fəth edib. Yarış həftəsonunda dünya musiqisinin məşhur iki ulduzu axşam saatlarında "Baku Crystal Hall"da səhnəyə çıxaraq azarkeşlərə möhtəşəm əyləncə şousu təqdim edib. Şənbə günü sıralanma turundan sonra keçirilən konsertdə Cessi Cey ən sevilən mahnılarını ifa edib, bazar günü isə Kardi B möhtəşəm performansı ilə yarış həftəsonunun bağlanış konsertinə öz damğasını vurub.

Bundan başqa, bu il ilk dəfə olaraq BŞH-nin təşkilatçılığı ilə yarış həftəsonu ərzində "Bakı şəhərinin sədaları" adı altında gecə əyləncə proqramları təşkil olunub. "Elektra Events Hall"da keçirilən proqramda dünyanın məşhur DJ-ləri çıxış ediblər. Aprelin 26-da səhnəyə Ciqan və Mahmut Orhan, ertəsi gün Robin Şulz, ayın 28-də isə "Lost Frequencies" çıxıblar. Biletləri "Formula-1" yarışlarından ayrıca satılan bu əyləncə proqramlarında Bakıya Azərbaycan Qran-prisini izləməyə gələn yüzlərlə xarici avtoidman azarkeşi ilə yanaşı, çox sayda paytaxt sakini də iştirak edib.

# Cəlilabadda Azərbaycanın Milli Qəhrəmanı sərhədçi gizir Faiq Cəfərovun anım mərasimi keçirilib

Mayın 1-də Cəlilabad rayonunun Şiləvəngə kəndində Azərbaycanın Milli Qəhrəmanı sərhədçi gizir Faiq Əliqulu oğlu Cəfərovun məzarı önündə anım mərasimi keçirilib.



Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə mərhumun atası, əmisi, Dövlət Sərhəd Xidmətinin zabitləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər. 1995-ci il martın 17-də dövlət çevrilişinə edilən cəhdin qarşısının alınması zamanı şəxsi şücaət və igidlik göstərdiyinə görə gizir Faiq Cəfərov ulu öndər Heydər Əliyevin 1995-ci il 27 dekabr tarixli sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Adını ölkəmizin sərhəd mühafizəsi tarixinə yazdıran Milli Qəhrəman Faiq Cəfərovun qəhrəmanlığı daim təbliğ olunur, gənclərə nümunə göstərilir.

Tədbirdə vətənimizin və dövlətçiliyimizin təhlükəsizliyinin təmin olunması kimi şərəfli bir vəzifəni yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəlmiş Faiq Cəfərov minnətdarlıq hissi ilə yad edilib, xalqımızın qəhrəman oğlunun əziz xatirəsinin daim uca tutulacağı vurğulanıb, Milli Qəhrəman haqqında xatirələr söylənilib.

*Təkrar*

## Azərbaycan Respublikası Vergilər Nazirliyi açıq məkanda reklam yerləşdirilməsinin satın alınması üçün

## *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 4 iyun 2019-cu il tarixdə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *iştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqanlardan arayış (Vergilər Nazirliyinə ünvanlanması göstərilməklə);*
- *iştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *iştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iştirakçının bank rekvizitləri barədə məlumat;*
- *iştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *satınalma müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edəcək və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri barədə məlumat;*
- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 26 dekabr tarixli 598 nömrəli Qərarı ilə təsdiq edilmiş icazə müqaviləsi və icazə müqaviləsinə əlavə;*
- *tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 23 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 1 000,00 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**

| | |
|---|---|
| **Hesab №:** | **AZ65CTRE00000000000002118401** |
| **VÖEN:** | **1300204521** |

**Dövlət Xəzinədarlığı Agentliyi**

| | |
|---|---|
| **Kodu:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **S.W.İ.F.T.BİK:** | **CTREAZ22** |
| **Büdcə təsnifatının kodu:** | **142340** |
| **Büdcə səviyyəsinin kodu:** | **7** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı 03 iyun 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 12 ay ərzində.

**Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**

AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Əlaqələndirici şəxs:** Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 15.03.2019-cu il tarixdə keçirilmiş 4 LOT üzrə "Bakı Metropoliteni" QSC-nin istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan mal, material və avadanlıqların açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə LOT -5 müxtəlif növ yastıq və yastıq məmulatlarının alınması üzrə "PIC Azerbaijan" MMC, LOT-6 müxtəlif növ elektrik mallarının alınması üzrə "Santral Elektrik LTD" MMC və "ERG Baku" MMC, LOT-7 müxtəlif növ işçi alətlərinin alınması üzrə "Metal Elmi-Texniki Mərkəzi" MMC, "Santral Elektrik LTD" MMC və "ERG Baku" MMC, LOT-9 kompüter avadanlıqları və mallarının alınması üzrə "Bestcomp Group" MMC qalib elan olunmuşlar. Qalib gəlmiş təşkilatlar ilə LOT-5 üzrə "PIC Azerbaijan" MMC ilə ƏDV daxil 790 502.06 (yeddi yüz doxsan min beş yüz iki manat 06 qəpik) manat məbləğində 01.05.2019-cu il tarixində, LOT-6 üzrə "Santral Elektrik LTD" MMC ilə ƏDV daxil 1058955,07 (bir milyon əlli səkkiz min doqquz yüz əlli beş manat 07 qəpik) manat və "ERG Baku" MMC ilə ƏDV daxil 1767575,24 (bir milyon yeddi yüz altmış yeddi min beş yüz yetmiş beş manat 24 qəpik) manat məbləğnidə 01.05.2019-cu il tarixində, LOT-7 üzrə "Metal Elmi-Texniki Mərkəzi" MMC ilə ƏDV daxil 150183.32 manat (yüz əlli min yüz səksən üç manat 32 qəpik) manat, "Santral Elektrik LTD" MMC ilə ƏDV daxil 241274.97 manat (iki yüz qırx bir min iki yüz yetmiş dörd manat 97 qəpik) manat və "ERG Baku" MMC ilə ƏDV daxil 174281.40 manat (yüz yetmiş dörd min iki yüz səksən bir manat 40 qəpik) manat məbləğnidə 30.04.2019-cu il tarixində, LOT-9 üzrə "Bestcomp Group" MMC ilə ƏDV daxil 1308992,88 (bir milyon üç yüz səkkiz min doqquz yüz doxsan iki manat 88 qəpik) manat məbləğində 01.05.2019-cu il tarixində müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

# MKİ-nin sabiq əməkdaşı Çinin xeyrinə casusluq edib



ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) sabiq əməkdaşı Cerri Çun Şin Li Çin hökumətinin xeyrinə casusluq məqsədilə sövdələşməyə getdiyini etiraf etmişdir. Bu barədə CNN telekanalı xəbər verir.

Prokurorların məhkəməyə təqdim etdiyi sənədlərdən məlum olur ki, Cerri Çun Şin Li iki çinli kəşfiyyatçı ilə əlaqə saxlayırmış. Kəşfiyyatçılar ondan nağd pul müqabilində məxfi informasiya alırmışlar.

İttihamnaməyə görə, çinli kəşfiyyatçılar əsasən MKİ-nin fəaliyyəti ilə bağlı 21 sorğu göndərmişlər. Həmin müddətdə amerikalının bank hesabına yüz minlərlə dollar daxil olmuşdur. Cerri Çun Şin Lini maksimal müddətli həbs cəzası gözləyir. Buna baxmayaraq, prokurorlar bildirmişlər ki, MKİ-nin sabiq əməkdaşı təqsirini etiraf etdikdən sonra hakimdən 21 il həbs cəzası istəyəcəklər. Məhkəmə avqustda casus barəsində hökm çıxaracaq. 1994-2007-ci illərdə MKİ-də çalışmış Cerri Çun Şin Li son vaxtlaradək Honqkonqda yaşayırdı.

# Berlin polisi 1 may aksiyasında 100-ə yaxın nümayişçini saxlayıb

Berlinin Fridrixsxayn rayonunda 1 may aksiyası zamanı 100-ə yaxın nümayişçi saxlanmış, 30 nəfər yaralanmışdır. Bu barədə yerli polisin mətbuat xidməti məlumat vermişdir.



"İnterfaks" agentliyinin xəbərinə görə, mitinq və konsertdən sonra solçuların minlərlə tərəfdaşı əvvəlcədən planlaşdırılmış marşrut üzrə yürüşə başlamışdır və bu səbəbdən yollar bağlanmışdır. "Kapitalistlərə yox!" şüarı səsləndirən adamlar polisin müşayiəti ilə bir neçə kilometr yol qət etmişlər. Yandırılan fişənglər hesaba alınmasa, ümumilikdə yürüş sakit məcrada keçmişdir. Lakin sona yaxın polislə aksiya iştirakçıları arasında xırda toqquşmalar baş vermişdir. Bundan sonra radikallar polisə butulka və daş atmışlar.

# Türkiyə ötən ay İŞİD-ə sarsıdıcı zərbə endirib

Türkiyə İŞİD terrorçu təşkilatının üzvlərinə qarşı qətiyyətli və səmərəli mübarizəni davam etdirir. Ötən ay ölkənin bir çox vilayətlərində, o cümlədən Ankara, Samsun, Sakarya, Osmaniyyə və Kocaelidə terrorçu təşkilatla əlaqəsi olan şəxslərə qarşı uğurlu əməliyyatlar keçirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Məlumata görə, aprel ayında İŞİD-lə əlaqədə şübhəli bilinən 135 nəfər, o cümlədən terrorçu təşkilatın əcnəbi vətəndaşlardan ibarət başçıları saxlanmışdır. Onlardan 48-i məhkəmənin qərarı ilə həbs olunmuş, qalanları barədə istintaq hərəkətləri davam edir. Şübhəli şəxslərin bəziləri Türkiyədən deportasiya olunublar.

***Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2016-cı ildə Nəzrin Rəhman qızı Musayevanın adına verilmiş diplom itdiyi üçün etibarsız sayılır (Beynəlxalq iqtisadi münasibətlər fakültəsi, qrup 822).***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Vüqar Əliyevə anası

**ŞÖVKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Hacıqabul Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimova qardaşı

**ALMAS İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Vüqar Əliyevə anası

**ŞÖVKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Vüqar Əliyevə anası

**ŞÖVKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin kollektivi Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova əzizi

**VƏLİ CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova əzizi

**VƏLİ CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan




AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9054
Sifariş 1448
Qiymәti 40 qəpik